# 26 İYUN - SİLAHLI QÜVVƏLƏR GÜNÜDÜR!

AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 26 (1371), 26 - 28 iyun 2018-ci il

Qəzet 2001-ci ildən çıxır.




## Bakıda keçirilən gimnastika üzrə lisenziya yarışlarına yekun vurulub

İyunun 23-də Milli Gimnastika Arenasında Yeniyetmələrin Buenos-Ayres-2018 Yay Olimpiya Oyunlarına lisenziya verən idman gimnastikası yarışları keçirilib.

Təsnifat yarışlarında dünyanın 32 ölkəsindən 96 (52 kişi və 44 qadın) gimnast mübarizə aparıb. Kişi gimnastlar 16-17 yaş, qadın gimnastları isə 15 yaş kateqoriyasında qüvvələrini sınayıblar. Ölkəmizi bu yarışlarda Samirə Qəhrəmanova, Ağamurad Qəhrəmanov və Səməd Məmmədli təmsil ediblər.

Oğlanlar arasında çoxnövçülük yarışlarında birinci yeri rusiyalı gimnast Yuri Busse tutub. O, hakimlərdən 80.731 xal alıb. Sergey Nadin (Rusiya) 80.297 xalla fəxri kürsünün ikinci pilləsində qərar qərarlaşıb. Balas Kristizan (Hollandiya) 79.332 xalla 3-cü yerə layiq görülüb.

Azərbaycanlı gimnast Səməd Məmmədli 77.931 xalla 5-ci yerdə qərarlaşıb. Beləliklə, gimnastımız Yeniyetmələrin Buenos-Ayres-2018 Yay Olimpiya Oyunlarına lisenziyanı təmin edib.

Qızlar arasında yarışlarda qızıl medala 54.299 xalla Ukrayna təmsilçisi Anastasiya Baxinskaya layiq görülüb. Fəxri kürsünün 2-si pilləsində hakimlərdən 53.266 xal alan fransalı gimnast Karolann Heduit qərarlaşıb. Rusiyalı gimnast Darya Belousova 53.066 xalla 3-cü yeri tutub.

Məlumat üçün bildirək ki, Yeniyetmələrin III Yay Olimpiya Oyunları bu il oktyabrın 6-18-də Argentinanın Buenos-Ayres şəhərində keçiriləcək.

## II Avropa Oyunlarının açılışına qədər geriyə sayım başlandı

II Avropa Oyunları 2019-cu ildə Belarusda keçiriləcək. Bununla əlaqədar Belarus Prezidenti Aleksandr Lukaşenko Minskdəki yenilənmiş "Dinamo" stadionunda geriyə sayım hesabını açmışdır. BelTA agentliyi xəbər verir ki, dövlət başçısı müvafiq düyməni basandan sonra işıq-diod ekranlarında II Avropa Oyunlarının açılışına qədər geriyə sayım başlanıb.

Bu mərasim Minsk səmasında və xüsusən stadiondakı piyalədə pirotexnik effekt ilə müşayiət olunub. Aleksandr Lukaşenko qeyd edib ki, II Avropa Oyunları Belarus üçün və bütün dünya ictimaiyyəti üçün möhtəşəm hadisə, "Dinamo" stadionu isə bu Oyunların döyünən qəlbi olacaq. Atletika üzrə yarışlar və oyunların açılış mərasimi burada keçiriləcək.

II Avropa Oyunları 2019-cu il iyunun 21-dən 30-dək badminton, basketbol 3x3, boks, güləş (yunan-Roma, sərbəst güləş və qadın güləşi), velosiped idmanı (trek və şose), gimnastika (idman, bədii, akrobatika, aerobika və batut üzərində tullanma), baydarka və kanoedə avarçəkmə, cüdo, karate, atletika, sambo, kamandan oxatma, atıcılıq (güllə və stend atıcılığı), stolüstü tennis və çimərlik futbolu növləri üzrə Minskdə keçiriləcək.

Avropa Olimpiya komitələrinin ekspertləri yarışların startına bir il qalmış Minskin bu tədbirə hazırlığını yüksək qiymətləndiriblər. Qarşıdakı yarışların proqramı praktiki olaraq, hazırdır. Burada 200 dəstdən çox mükafat uğrunda mübarizə gedəcək, 10 idman növü üzrə yarışlar isə Tokio Olimpiya Oyunları üçün seçmə xarakteri daşıyacaq. Xatırladaq ki, I Avropa Oyunları 2015-ci ildə Azərbaycanın paytaxtı Bakıda keçirilib.

MINSK 2019 2nd EUROPEAN GAMES




## Olimpiya Hərəkatında yaddaqalan tarix

23 iyun - Beynəlxalq Olimpiya Günüdür. 1947-ci ildə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Stokholmda keçirilən 41-ci sessiyasında Beynəlxalq Olimpiya Gününü qeyd etmək təklifi irəli sürülüb. Beynəlxalq Olimpiya Günü ilk dəfə 1948-ci il iyunun 23-də 9 ölkədə qeyd olunub. Bu günü daha təntənəli şəkildə və bütün Milli Olimpiya komitələrinin iştirakı ilə qeyd etmək məqsədilə 1987-ci ildə Olimpiya Qaçış Günü keçirilib.

Azərbaycanda Beynəlxalq Olimpiya Qaçış Günü ilk dəfə 1996-cı ildə təşkil edilib. Elə həmin ildə Azərbaycan müstəqil dövlət kimi ilk dəfə Olimpiya Oyunlarında təmsil olunub.

## Azərbaycan Milli Olimpiya Komitəsi Forumda təmsil olunub

İyunun 23-də Gürcüstan Milli Olimpiya Komitəsinin təşkilatçılığı ilə Gürcüstan Olimpiyaçılarının Forumu keçirilib.

Tədbirdə 1952-ci il Helsinki Olimpiya Oyunlarından Pxençxan-2018 Qış Olimpiya Oyunlarına qədər çempion olan idmançılar bir araya toplanıb. Olimpya dəyərlərini təbliğ edən tədbirdə çempionlar arasında qaçış yarışı keçirilib.

Forumda Olimpiya çempionları ilə yanaşı, Milli Olimpiya komitələrinin nümayəndələri iştirak ediblər. Ölkəmizi bu tədbirdə Olimpiya çempionu Fərid Mansurov və MOK-un əməkdaşı Həsənağa Rzayev təmsil edib.

## Olimpizm

### Namizədlərin sayı 7,5 minə çatıb



Həmin insanlar idmana sıx bağlı olan və Soçi-2014 Olimpiadasında iştirak edən könüllülərdir.

2019-cu ildə keçiriləcək II Avropa Oyunlarının başlanmasına 1 il qalmış ərizə verən könüllülərin sayı 7,5 minə çatıb. Bu barədə "Mİnsk-2019 Avropa Oyunları" Fondunun direktor müavini Anatoliy Kotov məlumat verib.

II Avropa Oyunlarında könüllü qismində iştirak etmək üçün ərizə ilə müraciət edən 7,5 min nəfərdən 1 mini Rusiyadandır.

Anatoliy Kotovun sözlərinə görə, oyunların talismanı iki həftədən sonra məlum olacaq.

Minskdə keçiriləcək II Avropa Oyunlarında Avropa qitəsinin 50 ölkəsindən 4 mindən çox idmançının iştirak edəcəyi gözlənilir. Yarışları 650 əcnəbi, 410 milli hakim idarə edəcək. Minə yaxın KİV nümayəndəsi isə yarışları işıqlandıracaq.

### KXDR və Cənubi Koreya Asiya-2018 Oyunlarında vahid komandada çıxış edəcək

Bu ilin avqust ayında İndoneziyada Asiya Oyunları start götürəcək. KXDR və Cənubi Koreya Asiya-2018 Oyunlarında vahid komandada çıxış etməyə qərar verib. Hər iki ölkənin komandası açılış mərasimində tribunadan vahid bayraq altında keçəcəklər.

İllərdir qarşıdurma şəraitində olan KXDR və Cənubi Koreyanın idmançıları ilk dəfə bu ilin qışında Cənubi Koreyanın Pxençxan şəhərində keçirilən XXIII Qış Olimpiya Oyunlarında bir araya gəliblər. Həmin olimpiadada qonşu ölkələr qadınlar arasında hokkey yarışlarında vahid komandada təmsil olunublar.


Xüsusi buraxılış Səh. 4-6




## FUTBOL

### DÇ-2018: Çempionluq üçün tək namizəd yoxdur

*Gizli favorit növbəti mərhələdə üzə çıxacaq*

## Anons

| | |
|---|---|
| *UCI-nin rəhbəri təşəkkür məktubu göndərib* | *Bakıda keçirilən beynəlxalq karate turniri başa çatıb* |
| Cüdoçularımız mövqelərini qoruyublar | Basketbolçularımız yeni sınaq qarşısında |


Səh. 2


*Avropa Liqası turnirinə yekun vurulub*

*"Məhsul" İC-in pəhləvanı bürünc medal qazanıb*

*"Proqres"lə ilk oyun Qəbələdə keçiriləcək*


Səh. 7



olimpnews.az - sizin saytınız




## Velosiped



# UCI-nin rəhbəri təşəkkür məktubu göndərib

Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) prezidenti David Lappartien dünya çempionatının uğurla başa çatması ilə əlaqədar Azərbaycan Velosiped İdmanı Federasiyasının 1-ci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin (UEC) Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərova təşəkkür məktubu göndərib.

Məktubda Bakıya səfərindən məmnunluğunu ifadə edən UCI prezidenti dünya çempionatının yüksək səviyyədə təşkil olunduğu üçün ölkəmizə təşəkkür edib. O qeyd edib ki, bu cür böyük tədbiri təşkil etmək olduqca böyük məsuliyyət və əmək tələb edir. Təşkilat Komitəsinin gördüyü işlər Bakıya gələn qonaqların yaddaşlarında xoş xatirələrlə qalacaq.

David Lappartien məktubunu bu cümlələrlə tamamlayıb: “Sizə BMX velosipedinin inkişafına verdiyiniz böyük dəstəyə görə UCI ailəsi adından dərin təşəkkürümü bildirirəm”.

Qeyd edək ki, 5 gün davam edən dünya çempionatında planetin 43 ölkəsinin 1520 idmançısı iştirak edib.

## Basketbol

# Millimiz yeni sınaq qarşısında

İyunun 30-da Rumıniyada 3x3 basketbol üzrə Avropa çempionatının seçmə mərhələsinə start veriləcək. Amil Həmzəyev, Zaur Paşayev, Anar Hacıyev və Marşall Mozesdən ibarət olan milli komandamız İspaniya və İtaliya basketbolçuları ilə birgə B qrupunda yarışacaq.

A qrupunda Serbiya, Gürcüstan, Litva, C Rumıniya, Bosniya və Herseqovina, İsveç, D qrupunda isə Almaniya, Xorvatiya və İrlandiya yığmaları mübarizə aparacaqlar.

Qalib komanda Avropa çempionatının finalına vəsiqə qazanacaq. Rumıniya yarımfinala yüksələrsə, seçmə mərhələdə beşinci olacaq komanda qitə birinciliyinə vəsiqəni təmin edəcək. Çünki Avropa birinciliyinin ev sahibi kimi Rumıniya final mərhələsində öz yerini təmin edib.



* * *

Basketbolun 3X3 növü üzrə Avropa çempionatının seçmə mərhələsi keçirilib. Andorrada təşkil olunan A qrupunun oyunlarında Azərbaycan millisi də mübarizə aparıb.

Dina Ulyanova, Tatyana Deniskina, Aleksandra Mollenhauer və Mersedes Uolkerdən ibarət komandamız qrup mərhələsini keçə bilməyib. Belə ki, İspaniyaya 14:19, Yunanıstana 17:20 hesabı ilə uduzan təmsilçimiz son 2 matçda qələbə qazanıb. Lakin yığmamızın Andorraya 21:9, İtaliyaya 19:17 hesabı ilə qalib gəlməsi, yarımfinal istəyinin reallaşmasına imkan verməyib. Komandamız bu nəticə ilə yalnız ev sahiblərini qabaqlayıb. Qrupumuzda yer alan İtaliya və İspaniya komandaları isə növbəti mərhələyə vəsiqə qazanıb.

## Karate

# Bakıda keçirilən beynəlxalq karate turniri başa çatıb

***“Sərhədçi” İdman Olimpiya Mərkəzində Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovun xatirəsinə həsr olunmuş beynəlxalq karate turniri keçirilib.***

***Yarışın təntənəli açılış mərasimində əvvəlcə iştirakçı komandaların paradı olub. Azərbaycanın dövlət himni səsləndirildikdən və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra turnirin baş hakimi Cahangir Babayev yarışı açıq elan edib.***

Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını bildirən Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov idmançıların ölkəmizi beynəlxalq arenada yüksək səviyyədə təmsil etdiklərini vurğulayıb. O qeyd edib ki, Azərbaycanda digər idman növləri kimi, karatedə də inkişaf müşahidə olunur. İdmanın bu növü 2020-ci ildə Tokioda təşkil olunacaq Yay Olimpiya Oyunlarının proqramına daxil edilib.



Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov karateçilərimizin uğurlarından danışıb. Vurğulayıb ki, Azərbaycan dünya karatesinə Rəfael Ağayev kimi güclü idmançı bəxş edib. Əminik ki, bütün titullara sahib olan Rəfael Ağayev Olimpiya medalı ilə də bizi sevindirəcək. Ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışan Yaşar Bəşirov turnir iştirakçılarına uğurlar arzulayıb.

Bakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Milix Yevdayev turnirin əhəmiyyətini yüksək qiymətləndirib. Bildirib ki, turnir təkcə Albert Aqarunovun deyil, bütün şəhidlərimizin və Milli qəhrəmanlarımızın xatirəsinə həsr olunub. Azərbaycandakı tolerantlıq, dinlərarası əməkdaşlıq və qarşılıqlı hörmət modeli digər ölkələr üçün nümunədir.

Albert Aqarunovun döyüş yolundan danışan Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov Azərbaycan idmançılarının qazandığı nailiyyətləri yüksək qiymətləndirib.

Vurğulayıb ki, idman sahəsində əldə olunan uğurlara görə Azərbaycan digər ölkələrə nümunədir. Respublikamızda idmanın inkişafı üçün hər cür şərait var. Həmçinin beynəlxalq standartlara cavab verən idman infrastrukturu yaradılıb. Bütün bunlar ölkəmizdə aparılan uğurlu idman siyasətinin bariz nümunəsidir.

Digər çıxış edənlər Milli Qəhrəmanla bağlı xatirələrini danışıb, turnir iştirakçılarına uğurlar arzulayıblar.

Sonra turnirin təşkil olunmasında göstərdiyi xidmətlərə görə Azərbaycan Milli Karate Federasiyası və Bakı Dağ Yəhudiləri Dini İcması tərəfindən bir qrup şəxsə fəxri diplomlar təqdim olunub.

Gənclər və İdman Nazirliyinin və Azərbaycan Milli Karate Federasiyasının birgə təşkil etdiyi yarışda 10-dək ölkəni təmsil edən idmançılar iştirak ediblər.

Qara dəniz və Xəzəryanı ölkələr arasında keçirilən xatirə turnirində beş yaşdan yuxarı karateçilər mübarizə aparıblar.

Turnirin fərdi yarışlarında fərqlənən idmançılara medal və diplom, komanda çıxışlarında yer alan karateçilərə isə kubok təqdim olunub.

## Xəbərlər

### Cüdoçularımız mövqelərini qoruyublar

Beynəlxalq Cüdo Federasiyası yeni reytinq cədvəlini açıqlayıb. Tərtib olunan yeni siyahı Azərbaycan yığmasının aparıcı üzvləri üçün uğurlu olub.

Belə ki, “Top-20”-də 10 təmsilçimiz yer alıb. Onlardan millidə məşqçiliyə başlayan, eyni zamanda karyerasını davam etdirən Elxan Məmmədov cədvəldə irəliləyib. 100 kq çəki dərəcəsində çıxış edən dünya çempionumuz 1 rəqibini qabaqlamaqla, 7-ci yerə yüksəlib.

Digər cüdoçularımızın əksəriyyəti isə mövqelərini qoruyublar. Rüstəm Orucov yenə 2-ci, Hidayət Heydərov (hər ikisi 73 kq) 3-cü, İrina Kindzerska (+78 kq) 6-cıdır. Elmar Qasımov (100 kq) və Məmmədəli Mehdiyev (90 kq) 11-ci pillədəki mövqeyini qoruyub. Orxan Səfərov (60 kq) 18-ci, Zelim Kotsoyev (100 kq) 19-cu və Nicat Şıxəlizadə (66 kq) isə 20-ci pillədədir.

“Top-20”-də yalnız Tural Səfquliyev geriləyib. Ötən siyahıda 14-cü olan cüdoçumuz bu dəfə 1 pillə geriləyərək 15-ci pillədə yer alıb.

### “Azərreyl” “Çelenc Cup”da mübarizə aparacaq

Ölkəmizi qadın voleybolçular arasında avrokubokda təmsil edəcək komandanın adına aydınlıq gəlib. Azərbaycan ötən il olduğu kimi, bu dəfə də “Çelenc Cup”da bir komanda ilə mübarizə aparacaq.

Qitəmiqyaslı turnirdə Super Liqanın qalibi “Azərreyl” çıxış edəcək. Bu, “dəmiryolçular”ın avrokubokda 18-ci cəhdidir. Bakılılar “Çelenc Cup”da isə 4-cü dəfə oynayacaqlar.

Yarışın püşkatması iyunun 28-də Lüksemburqda olacaq. Turnirə isə noyabrın 11-də start veriləcək.

### “Neftçi”nin ilk yoxlama oyunu

Türkiyənin Topuk yaylası bölgəsində təlim-məşq toplanışının ikinci mərhələsinə başlayan “Neftçi” klubu ilk yoxlama oyununu keçirib.

Rəqib Makedoniyanın “Şkupi” klubu olub.

Qarşılaşma “flaqman”ın 2:0 hesablı qələbəsi ilə yekunlaşıb. Hesabı 62-ci dəqiqədə Namik Ələskərov açıb. Oyunun 86-cı dəqiqəsində Mirabdula Abbasov yekun nəticəni müəyyənləşdirib.

“Şkupi” bu il avrokuboklarda debüt edəcək. “Qarabağ”ın sabiq futbolçusu Zakariya Ramadaninin hazırda baş məşqçi kimi çalışdığı kollektiv Avropa Liqasının birinci təsnifat mərhələsində Şotlandiyanın “Qlazqo Reyncers” klubu ilə üz-üzə gələcək.



Türkiyədə təlim-məşq toplanışı çərçivəsində “Neftçi” daha üç yoxlama görüşündə gücünü sınayacaq. İyunun 28-də rəqib Rumıniyanın “Dunarya Kalaraşı”, iyulun 5-də isə “Politexnika” klubu olacaq. Daha bir rəqibin adı yaxın günlərdə açıqlanacaq.

## Müsahibə

# Əhməd Səbri:
## “Digər ölkələrdəki hazırlıqların heç biri, Bakıdakı toplanış qədər səmərəli olmayıb”

***Bu yaxınlarda İraq Olimpiya Komitəsinin maliyyə işləri üzrə müdiri, İraq Velosiped İdmanı Federasiyasının baş katibi, Asiya Olimpiya Komitəsinin mətbuat üzrə nümayəndəsi Əhməd Səbri Bakıda olub. Təcrübəli mütəxəssis paytaxtımızda olduğu müddətdə redaksiyamızın da qonağı olaraq, gəlişinin səbəbi barəsində “Olimpiya dünyası” qəzetinə müsahibə verib. O, ölkəmizdə idmanın inkişafı üçün yaradılan şəraitdən məmnun qaldığını bildirib. Əhməd Səbri ilə müsahibəni oxucularımıza təqdim edirik.***

***- Əhməd bəy, ölkəmizə xoş gəlmisiniz. Paytaxtımıza gəlişinizin əsas səbəbi ilə bağlı oxucularımıza məlumat verərdiniz?***

- Bakıya səfər etdiyim üçün çox məmnunam. Burada bizi xoş qarşıladılar. Doğrudan da, qonaqpərvər insanlarınız var. Paytaxtınıza gəlişimin əsas səbəbi idmançılarımızın buradakı təlim-məşq toplanışı ilə əlaqədardır. Avqustun 18-dən sentyabrın 2-dək İndoneziyada Asiya Oyunları təşkil olunacaq. Komandamız bu yarışlara hazırlaşır. Bir sözlə, gəlişimizin də əsas səbəbi komandamızı həmin yarışa daha yaxşı hazırlaşdırmaqdır. Buyaxınlarda ağırlıqqaldırma və atletika üzrə yığma komandalarımız təlim-məşq üçün Bakıya gəlib. Onlar burada təlim-məşq prosesində iştirak edirlər. Ağırlıqqaldıranlarımız “Zirvə” idman klubunda, atletlərimiz isə Tofiq Bəhramov adına respublika stadionunda hazırlıq keçirlər.

***- Hazırlıq prosesi və Bakıdakı idman qurğuları sizi qane edirmi?***

- Buna qədər komandamız IV İslam Həmrəyliyi Oyunları ərəfəsində də Bakıda hazırlıq prosesi keçmişdi. Həmin hazırlıq çərçivəsində bir sıra idman zallarında olduq. Azərbaycanda yaradılan idman infrastrukturu, hərtərəfli şərait bizi çox qane etmişdi. Bir sözlə, Bakını IV İslam Həmrəyliyi Oyunlarından sonra yeni bir idman ölkəsi kimi kəşf etdik. Qərara gəldik ki, budəfəki hazırlığımızı da Bakıda təşkil edək. Buradakı arenalar, idman zalları bizim üçün çox əlverişlidir. İdmançılarımız da burada hazırlıq keçməkdən çox məmnundurlar. Atletlərimiz Bakıda özlərini çox rahat hiss edirlər.

***- Maraqlıdır, əvvəlki illərdə komandalarınız əsasən, hansı ölkələrdə hazırlıq keçib?***

- Əvvəlki illərdə təlim-məşq toplanışı üçün əsasən, Türkiyə və İrana üstünlük verirdik. Hazırlıqlarımızı demək olar ki, elə bu ölkələrdə təşkil edirdik. Lakin Bakıdakı idman qurğularında və zallarında yaradılan şəraiti gördükdən sonra təlim-məşq toplanışlarımızı burada keçirməyi qərara aldıq. Qeyd etdiyim kimi, komandalarımız bir sıra ölkələrdə təlim-məşq toplanışlarında iştirak edib. Digər ölkələrdəki hazırlıqların heç biri, Bakıdakı toplanış qədər səmərəli olmayıb. Hər şeydən çox razı qaldıq. Bizi Bakıda çox gözəl qarşıladılar. Demək olar ki, bütün məsələlərdə bizə köməklik göstərildi. Bizim üçün yaradılan şəraitə, göstərdiyiniz qonaqpərvərliyə və köməyinizə görə minnətdarlığımızı bildirirəm.



***- Asiya Oyunlarına qədər daha hansı yığma komandalarınız Bakıda hazırlıq keçəcək?***

- Yarışların başlamasına hələ 2 aya yaxın vaxt qalıb. Bu müddət ərzində ağırlıqqaldıranlarımız və atletlərimizdən əlavə, digər növlərlə məşğul olan idmançılarımız da Bakıya gələcəklər. Boksçularımızın da burada hazırlıq keçməsini planlaşdırırıq. Demək olar ki, 12-yə yaxın boksçumuz Bakıda olacaq. Bağdada qayıtdıqdan sonra həmin idmançıların siyahılarını yenidən nəzərdən keçirəcəyik. Bundan başqa velosipedçilərimiz, üzgüçülərimiz və həndbolçularımız da Bakıda hazırlıq keçəcəklər. Yalnız avarçəkmə millimiz hazırlığını Fransada davam etdirir. Avarçəkənimizin məşqçisi fransalı mütəxəssis olduğu üçün idmançını da özü ilə həmin ölkəyə aparıb.

***- Mingəçevirdə avarçəkmə idman növünün inkişafı üçün çox gözəl şərait yaradılıb. Xarici ölkələrin idmançıları hazırlıqlarını əsasən bu şəhərdə keçirlər...***

- Düzünü desəm, Mingəçevir barəsində o qədər də çox məlumatım yox idi. Bakıya gəldikdən sonra buradakı idman infrasturukturları ilə tanış oldum. Mənə burada Mingəçevirdəki “Kür” Olimpiya və Avarçəkmə Mərkəzi barədə məlumat verildi. Oradakı şərait məni çox qane etdi. Yəqin ki, avarçəkmə üzrə növbəti təlim-məşq toplanışlarımızı Mingəçevirdə təşkil edəcəyik.

***- Asiya Oyunlarında komandanız neçə idman növündə çıxış edəcək?***

- Bu Oyunlarda komandamız 7 idman növü üzrə mübarizə aparacaq. Hesab edirik ki, İraq idmançıları onlara bəslənilən ümidləri doğruldacaqlar.

***- Qarşıdakı illərdə Azərbaycan və İraq idmançıları arasında tərəfdaş kimi yarışların keçirilməsi gözlənilirmi?***

- Düzünü desəm, bu barədə memorandum imzalanmayıb. Lakin biz çox istəyərdik ki, bu iki dövlət arasında yaxınlıq, dostluq əlaqələri hər zaman möhkəm olsun. Təbii ki, düşünürük ki, gələcəkdə bir turnir təşkil edək. Bu yarış boks idman növü üzrə ola bilər. Bizim üçün belə yarışların təşkil olunması təcrübə baxımdan çox gözəl vasitədir. Biz bu tərəfdaşlıqdan çox məmnun olarıq.

***Azər Əlizadə***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Raqif Abbasov:
# *"Uşaqlar arasında idmanın kütləviliyinə xüsusi diqqətlə yanaşılır"*

***Hələ qədim dövrlərdən etibarən müdriklər bədən tərbiyəsinin, fiziki hərəkətin insan həyatındakı rolunu yüksək qiymətləndiriblər. Onların fikrincə, uzun ömürlülüyün əsas şərtlərindən biri də gün ərzində müəyyən qədər hərəkətdə olmaq, passiv həyat tərzindən uzaq qalmaqdır. Antik dövr müəlliflərinin dediklərini bu günkü mütəxəssislər də təsdiq edirlər. Əgər əvvəllər idmanın yalnız bədəni sağlam etdiyi düşünülürdüsə, müasir dövrümüzdə fiziki tərbiyənin həm də əqli, mənəvi inkişafa müsbət təsir etdiyi müəyyənləşib. Bir sözlə, idman fiziki sağlamlıqla yanaşı, sağlam düşüncə tərzidir.***

Bu gün ölkəmizdə idmanın yüksək səviyyədə inkişaf etdirilməsi əsas prioritet məsələlərdən biridir. Müstəqilliyimizin ilk illərindən etibarən respublikamızda idmanın və bədən tərbiyəsinin kütləviliyinin artırılması istiqamətində atılan addımlar çox keçmədi ki, öz bəhrəsini verməyə başladı. Bu gün "Odlar yurdu" planetin əsas idman mərkəzlərindən biri kimi tanınır. Son illər Azərbaycanın beynəlxalq aləmdə idman sahəsində qazandığı nailiyyətlər, müxtəlif nüfuzlu yarışlara uğurla ev sahibliyi etməsi göz qabağındadır. Əlbəttə, bu uğurların qazanılmasında bir çox qurumların da böyük rolu var. Onlardan biri də Bakı Şəhər Gənclər və İdman Baş İdarəsidir. Adı çəkilən quruma 2008-ci ildən etibarən Raqif Abbasov rəhbərlik edir. Raqif müəllimlə görüşüb gənclər və idman sahəsində görülən işlər, keçirilən tədbirlərlə bağlı onunla həmsöhbət olduq.



***- Raqif müəllim, istərdik söhbətimizə Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin məqsəd və vəzifələri ilə başlayaq.***

- Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin qarşısında duran əsas vəzifələrdən biri gənclər və idman siyasətini həyata keçirməklə yanaşı, həm də paytaxtda müxtəlif idman növləri üzrə yarışlar, o cümlədən açıq birinciliklər, çempionatlar, xatirə turnirləri keçirməkdir.

Müvafiq olaraq ehtiyat qüvvənin formalaşması, milli komandalar üçün idmançıların yetişdirilməsi, paytaxt çempionatının keçirilməsi, dərəcə normativlərinin yerinə yetirilməsi, hakimlərin, məşqçilərin dərəcələrinin müəyyənləşdirilməsi, habelə kütləviliyin və rəqabətin artırılması gündəlikdə duran əsas məsələlərdəndir.

Ölkədə mövcud olan 85 idman növündən 55-i üzrə müntəzəm olaraq paytaxt miqyaslı yarışlar keçirilir. Həmin yarışların keçirilməsində əsas məqsəd idman və bədən tərbiyəsinin kütləviliyinin artırılması, idmançıların potensialının müəyyənləşməsidir. Əlbəttə, paytaxt yarışlarında yaxşı nəticə göstərən idmançılar müəyyən dərəcələrə layiq görülür, bir müddətdən sonra milli komandanın heyətinə cəlb olunurlar. Sevindirici haldır ki, bu idman yarışlarının coğrafiyası ildən-ilə artır. Çalışırıq ki, milli idman növlərimizin kütləviliyini daha da artıraq, onları yeniyetmə və gənclərə tanıdaq. Bununla yanaşı kapoeyra, sumo, triatlon, pouerliftinq, suyatullanma kimi bizə hələ o qədər də doğma olmayan idman növləri var ki, onları da inkişaf etdirməyə çalışırıq. Həmçinin, Olimpiya, qeyri-Olimpiya və paralimpiya idman növlərinin heç birinə fərq qoymayaq, paytaxt daxilində onların hər üçünü eyni dərəcədə, ən yüksək səviyyədə inkişaf etdirmək də başlıca məqsədimizdir. Bundan başqa ölkəmizin ev sahibliyi etdiyi nüfuzlu yarışların, beynəlxalq idman tədbirlərinin təşkilinə də lazımi qədər öz töhfəmizi verərək, həm texniki, həm də təşkilati cəhətdən üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışırıq.

## "Rayonlar üzrə idman növlərinin bölgüsü aparılıb"

***- Paytaxt rayonlarında kütləviliklə bağlı hansı işlər həyata keçirilir?***

- Bildiyiniz kimi, paytaxt Bakı 12 inzibati rayondan ibarətdir. Onlardan 11-də - Xəzər, Binəqədi, Qaradağ, Yasamal, Nizami, Nərimanov, Nəsimi, Sabunçu, Suraxanı, Səbail, Xətai rayonlarında Gənclər və İdman İdarəsi fəaliyyət göstərir. Həmin idarələrin də hər biri ayrı-ayrılıqda Gənclər və İdman Nazirliyinin sisteminə aiddir və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi həmin inzibati rayonların hər birində mövcud infrastukturu yaxşılaşdırmaq, uşaq, yeniyetmə və gənclərin idmanla daha kütləvi şəkildə məşğul olmaları üçün lazımi tədbirləri həyata keçirir. Hər rayonda yaradılan bazadan asılı olaraq müəyyən növlər daha çox inkişaf edib və etməkdədir. Yəni bəzi rayonlarda cüdo, güləş, bəzilərində isə futbol, baketbol üçün əlverişli şərait daha yaxşıdır. Bununla bağlı olaraq da rayonlar üzrə idman növlərinin bölgüsü aparılıb. Məsələn, Binəqədi və Səbail daha çox şahmat, dama, Xətai və Nərimanov voleybol, badminton, basketbol, Qaradağ və Yasamal, o cümlədən şəhərətrafı kənd və qəsəbələrdə futbol növləri daha çox inkişaf edib. Həmin ərazilərdə uşaqlar arasında məhəllə futboluna maraq xüsusilə çoxdur. Nizami, Nəsimi rayonlarında cüdo kütləviliyə malikdir. Habelə həmin rayonlarda kapoeyra, velosiped idman növləri də inkişaf etməkdədir. Müntəzəm olaraq keçirilən yarışlarda adını çəkdiyim rayonların konkret növlər üzrə qazandığı uğurlar bir daha sübut edir ki, nəticə üçün ilk növbədə şərait və təbliğat lazımdır. Buna görə biz də öz növbəmizdə çalışırıq ki, rayonlarda bir neçə idman növünün yox, maksimum dərəcədə çox idman növünün kütləviliyini təmin edək. Əlbəttə, rayonlar arasında rəqabət birbaşa inkişafa yol açır.

***- Rayonlardakı kütləvilik sağlam cəmiyyətin formalaşmasına öz müsbət təsirini necə göstərir?***

- Qeyd etdiyim kimi, Gənclər və İdman Baş İdarələrinin əsas vəzifələrindən biri də yerlərdə idmanın kütləviliyini artırmaqdır. Aydın məsələdir ki, kütləvilik nə qədər çox olarsa, uğurlar da bir o qədər artar. Digər tərəfdən isə rayonlarda idman sahəsində kütləviliyin çox olması birbaşa sağlam cəmiyyətin formalaşmasına öz müsbət təsirini göstərir. İdmanın və bədən tərbiyəsinin təbliğ olunması istiqamətində müntəzəm işlər görülür, tədbirlər keçirilir. Biz təkcə klublar, federasiyalar arasında yarışlar təşkil etməklə kifayətlənmirik. Eyni zamanda müxtəlif cəmiyyətlərə tapşırıqlar veririk ki, mütəmadi olaraq öz daxili çempionat və birinciliklərini keçirsinlər. Bu, heç də təsadüfi deyil. Belə yarışlar nəticəsində perspektivli idmançılar müəyyənləşir. Həmçinin idmançılar yarış mühitinə, o ab-havaya öyrəşirlər. Əlbəttə, kiçik turnirlərdə mübarizə aparmayan, gücünü sınamayan idmançı birdən-birə Azərbaycan çempionatında iştirak edə bilməz. Bu, həm psixoloji, həm də texniki-taktiki cəhətdən onun üçün çox çətin olar. Aydın məsələdir ki, böyük idmana gedən yol uşaq idmanından keçir. Ona görə də biz aşağı yaş qrupları arasında idmanın kütləviləşməsini özümüzə xüsusi vəzifə kimi seçmişik. Danılmaz faktdır ki, uşaqlar arasında seleksiya işi aparmaq, habelə onları düzgün istiqamətdə yönəltmək daha asandır. Biz tez-tez Azərbaycan tarixində iz qoyan şəxslərin xatirəsinə həsr olunmuş turnirlər də keçiririk. Məsələn Milli Qəhrəmanlar Çingiz Mustafayev və Cəmil Niftəliyevin xatirəsinə həsr olunmuş mini - futbol yarışları, iki dəfə Sovet İttifaqı qəhrəmanı Həzi Aslanovun xatirəsinə həsr olunmuş cüdo üzrə beynəlxalq turnir, tarixçi alim Ziya Bünyadovun xatirəsinə həsr olunmuş güllə atıcılığı yarışı, Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş şaolin döyüş sənəti üzrə yarış, Aprel döyüşü şəhidlərinin xatirəsinə həsr olunmuş pençak silat idman növü üzrə turnir belə tədbirlərdəndir. Onların keçirilməsində birinci məqsəd idmanın kütləviliyinin artırılmasıdırsa, ikinci amalımız məktəblilərə milli qəhrəmanlarımızı, dahi şəxslərimizi tanıtmaq, onları hərbi-vətənpərvərlik ruhunda böyütməkdir.

***- Xanımların idmana cəlb olunması sahəsində nə kimi tədbirlər görülür?***

- Hər kəs öz sağlamlığının qayğısına qalmalıdır. Bu da o deməkdir ki, idman hamı üçündür. Amma təəssüf ki, bu gün ölkəmizdə qadın idmanı kişi idmanına nisbətən zəif inkişaf edib. Xanım idmançıların sayının artırılması və qarışıq komandaların formalaşması, yarışların keçirilməsi yeni mərhələdə olsa da, bu istiqamətdə də ciddi addımlar atılır.

## "Hamı eyni idman növündə fərqlənə bilməz"

***- Uşaq fiziki cəhətdən sağlam ola bilər. Lakin onun mənəviyyatı da sağlam olmalıdır. Təbii ki, burada valideynlərdən də çox şey asılıdır. Sizin bu məsələ ilə bağlı fikirləriniz necədir?***

- Layiqli vətəndaş olmağın əsas şərtlərindən biri də mənəvi cəhətdən sağlam böyüməkdir. Yəni təkcə dözümlü, güclü olmaq kifayət deyil. Həm də humanist olmağı, qarşındakı insana hörmətlə yanaşmağı bacarmalısan. Bu baxımdan idmanın insan həyatındakı rolu əvəzsizdir. İdmanın, bədən-tərbiyəsinin mahiyyətini düzgün anlayan şəxs başa düşür ki, idman vurub-yıxmaq deyil. İdman ilk növbədə sağlam olmaq, sonra isə zəruri hallarda özünü müdafiə edə bilmək üçündür. Bununla yanaşı, xüsusilə fərdi idman növləri insana qarşındakı şəxsə hörmət etməyə, ədalətlə davranmağa çağırır. Təsadüfi deyil ki, cüdoya, güləşə yeni başlayan idmançılara ilk növbədə rəqiblə görüşməyi, ona baş əyməyi öyrədirlər. Həmçinin təkmübarizlik növlərində bir qayda olaraq müntəzəm şəkildə həm də idmançılar arasında futbol, basketbol, reqbi kimi komanda oyunları oynanılır. Həmin oyunların keçirilməsində əsas məqsədlərdən biri, heç şübhəsiz ki, uşaq və yeniyetmələri kollektiv mübarizəyə, yoldaşlığa öyrəşdirməkdir. Bir çox idman növlərində cərimə xalları nəzərdə tutulub. Əslində bu, çox böyük əhəmiyyətə malikdir. Məsələn, əgər sən güləş yarışında rəqibə təpik atırsansa, boks yarışında rəqibin boynundan yapışırsansa, əlbəttə, hakim səni cəzalandıracaq. Bax, bu hal idmançılara bir daha xatırladır ki, müvafiq qaydalara əməl etmək lazımdır, onları pozmaq olmaz. Lakin nəzərə almaq lazımdır ki, idman zalları ixtisaslaşdırılmış təlim-tərbiyə ocağı da deyil. Yəni uşağın mənəvi inkişafı üçün, əvvəlcə, ailə, sonra isə təhsil aldığı müəssisə məsuliyyət daşımalıdır.

***- Bəzən elə olur ki, illərlə məşq edən idmançı ilə zala cəmi 2-3 ay ayaq basan idmançı eyni nəticəni göstərir. Sizcə bu nəyin göstəricisidir?***

- Qeyd etdiyim kimi, idman gümrah və sağlam qalmaq üçün olduqca vacibdir. İdman həm də insana stimul verir, onu bir məqsəd uğrunda çalışmağa vadar edir. İdmanda hamı uğur qazana bilər. Amma hamı eyni idman növündə fərqlənə bilməz. İlk növbədə uşaq həmin növə ürəkdən həvəs göstərməli və seçimi müstəqil etməlidir. İkinci bir tərəfdən isə mütləq fizioloji quruluşu, sağlamlığı nəzərə almaq lazımdır. Bu baxımdan valideynlərə tövsiyə edərdim ki, övladlarını konkret növün məşqlərinə yazdırmazdan əvvəl Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən tibbi mərkəzdə müayinədən keçirsinlər. Yəni hansı növlə məşğul olmağa qərar verərkən təkcə həvəsi nəzərə almaq düzgün deyil. Çünki elə ola bilər ki, uşağın sağlamlığı, fizioloji quruluşu onun maraqlandığı idman növünə yox, bir başqası üçün uyğun olsun. Bu səbəbdən biz cəmiyyətlərə, klublara tövsiyə edirik ki, idmana yeni başlayan uşaq və yeniyetmələrə onlara hələ tanış olmayan idman növləri haqqında da məlumat versinlər ki, onlar seçim edən zaman daha düzgün qərar verə bilsinlər. Bir sözlə, idmanda uğur qazanmaq üçün ilkin mərhələdə seçimin düzgün edilməsi çox vacibdir. Fikrimcə, qeyd etdiyiniz məsələ də elə məhz bununla bağlıdır.

## "Biz artıq idmana sərmayə qoymaq yox, idmandan gəlir götürmək modeli üzərində çalışmalıyıq"

***- Raqif müəllim, bir sıra xarici ölkələrdə olmusunuz. Maraqlıdır, həmin ölkələrdə idmanın inkişafı prosesi hansı modellər əsasında həyata keçirilir?***

- Dünyanın müxtəlif ölkələrində idman klublarına, cəmiyyətlərə olan siyasət fərqlidir. Belə ki, MDB məkanında idman klubları



uşaq-gənclər idman məktəbi, ali Olimpiya idman məktəbi, yüksək idman ustalığı məktəbi və milli yığma komandanın klubu olmaqla dörd formada təsnif edilir. Qərbi Avropa dövlətlərində, o cümlədən Skandinaviyada isə bu model bir qədər fərqlidir. Həmin ölkələrdə isə orta ümumtəhsil məktəbləri, tədris ocaqları və şəxsin yaşadığı ərazidəki idman qurumları nəzərə alınır. Bu cür müxtəlif təsnifləşdirmə əhalinin sıxlığından, ölkədəki idman infrastukturundan, müxtəlif növlərə göstərilən maraqdan və mütəxəssislərin sayından asılıdır. Hazırda Azərbaycan ən yaxşı model üzərində irəliləyir, lakin gələcəkdə bu modeldə də dəyişikliyin olması zərurəti yarana bilər. Bildiyiniz kimi, idman dinamik sahədir. Tez-tez qaydalar dəyişilir. Bununla bağlı olaraq da rəqabət də güclənir, daha maraqlı hal alır. Elə həmin zərurətdən də idman modelləri də dəyişilir. Əlbəttə, bu modellərin formalaşmasında mətbuatın, iş adamlarının idmana sərmayə qoymasının və kütləviliyin çox böyük rolu var. Amma düşünürəm ki, biz artıq idmana sərmayə qoymaq yox, idmandan sərmayə götürmək modeli üzərində çalışmalıyıq.

***- Raqif müəllim, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi təntənəli şəkildə qeyd olundu. Əgər 100 illiyi mərhələlərə bölsək hansı uğurları daha qabarıq göstərmək olar?***

- Bu il bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Belə ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin əsasının qoyulmasından 100 il ötür. Əlbəttə, ötən bir əsr ərzində bir çox sahələrdə olduğu kimi, idmanda da əsaslı dəyişikliklər həyata keçirilib. Bu dəyişikliklərlə yanaşı uğurlarımız da çox olub. Son illər Azərbaycanın idman sahəsində qazandığı uğurlar uzun müddət bu sahədə görülən işlərin, bədən tərbiyəsinə göstərilən diqqət və qayğının nəticəsidir. Bu 100 ilin təxminən 70 ili Sovetlər birliyinin dövrünə təsadüf edir. Həmin illər Azərbaycan idmançıları üçün çox çətin vaxtlar idi. Digər millətləri təmsil edən idmançılarla eyni nəticəni göstərmək üçün fiziki, texniki-taktiki hazırlığın onlardan qat-qat çox olmalı idi. Bu isə, əlbəttə, bir sıra hallarda uğurların əldə olunmasına imkan vermirdi. Amma əminliklə deyə bilərəm ki, həmin dövrdə idmançılarımız heç bir əngələ fikir vermədən nailiyyət üçün çalışır və çox zaman öz məqsədlərinə çatırdılar. Məsələn elə 1952-ci ildə keçirilən Helsinki Olimpiadasında güləşçimiz Rəşid Məmmədbəyovun əldə etdiyi gümüş medal nəyə desən dəyərdi. O, Azərbaycan idmanının ilk Olimpiya medalı idi. Bizim sonrakı Olimpiya Oyunlarında qazandığımız müvəffəqiyyətlər də müxtəlif vaxtlarda Azərbaycan idmanının inkişafından xəbər verir. 1992-ci ildə Azərbaycan ikinci dəfə müstəqillik qazandıqdan sonra idmana göstərilən diqqət və qayğı daha da artdı. Elə həmin il Barselonada keçirilən növbəti Yay Olimpiya Oyunlarında cüdoçumuz Nazim Hüseynovun çempion olması, gələcək uğurların müjdəçisi idi. Sevindiricidir ki, hər növbəti Olimpiya Oyunlarında qazandığımız nəticələr əvvəlkindən daha yaxşı olur. 2016-cı ildə Rio-de-Janeyroda keçirilən növbəti Olimpiya Oyunlarında da medallarımızın sayı rekord oldu - 18 medal. Olimpiya Oyunlarından danışmağım heç də əbəs deyil. Bir ölkənin idman uğurlarından xəbər verən əsas göstəricilərdən biri də Olimpiya Oyunlarındakı nailiyyətidir. Amma məlum məsələdir ki, Olimpiya Oyunları kimi ən ali idman yarışında fərqlənmək üçün gərək, əvvəlcə, ölkə daxilində idmanın və bədən tərbiyəsinin inkişafı üçün lazımi şərait yaradasan. Ümumilli lider Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev də ilk illərdən etibarən bu sahəyə xüsusi diqqət və qayğı göstərməyə başladı. Bizim bu gün beynəlxalq yarışlarda qazandığımız uğurlar və ən mötəbər idman tədbirlərinə layiqli şəkildə ev sahibliyi etməyimiz görülən işlərin səmərə verdiyinin növbəti sübutudur. Hazırda Azərbaycan dünyada idman ölkəsi kimi tanınır.

***Anar Əhmədov,***

***Azər Əlizadə***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*









# FUTBOL

XÜSUSİ BURAXILIŞ - 3

# DÇ-2018: Çempionluq üçün tək namizəd yoxdur

## Gizli favorit növbəti mərhələdə üzə çıxacaq

DÇ-2018-in 7-ci günündə daha 3 qarşılaşma oynanılıb.

Günün ilk oyununda B qrupunda yer alan Portuqaliya və Mərakeş yığma komandaları qarşılaşıblar.

Sürətli hücumlar şəraitində keçən oyunda Portuqaliya millisi minimal hesabla qalib gəlib. Oyunda yeganə qolu matçın 4-cü dəqiqəsində Kriştianu Ronaldo vurub. Portuqaliya yığması minimal hesabla qalib gələrək səkkizdəbir finala yüksəlmək üçün vacib olan 3 xalı aktivinə yazdırıb. Mərakeş yığması isə 1/8 finala yüksəlmək şansını itirib.

Qeyd edək ki, bu matçda vurduğu qol Kriştianu Ronaldonun Avropada yeni rekord müəyyənləşdirməsinə səbəb olub. Belə ki, milli komandanın heyətində keçirdiyi 152 oyunda 85-ci qolunu vuran portuqaliyalı hücumçu bu göstərici üzrə macarıstanlı əfsanəvi futbolçu Ferents Puşkaşın rekordunu yeniləyib. Xatırladaq ki, F.Puşkaş 85 oyunda 84 dəfə fərqlənib.

### "Dəniz səyyahları" dünyanı yenidən kəşf etmək istəyir

*B qrupu*

II tur

**Portuqaliya - Mərakeş - 1:0 (1:0)**
**Qol:** Kriştianu Ronaldo, 4
**Sarı vərəqələr:** Andre Silva, 90 - Medhi Benatia, 40
**Hakimlər:** Mark Geyger, Frenk Anderrson, Co Fletçer (hamısı ABŞ)
*20 iyun. Moskva. "Lujniki" stadionu, 78011 tamaşaçı*

### 100-cü oyun, vacib qələbə

*A qrupu*

II tur

**Uruqvay - Səudiyyə Ərəbistanı - 1:0 (1:0)**
**Qol:** Luis Suares, 23
**Hakimlər:** Kleman Turpen, Nikolya Dano, Siril Qrinqor (hamısı Fransa)
*20 iyun. Rostov. "Levberdon Arena", 42678 tamaşaçı*

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Rusiya | 2 | 2 | 0 | 0 | 8-1 | 6 |
| 2. Uruqvay | 2 | 2 | 0 | 0 | 2-0 | 6 |
| 3. Misir | 2 | 0 | 0 | 2 | 1-4 | 0 |
| 4. S. Ərəbistanı | 2 | 0 | 0 | 2 | 0-6 | 0 |

Günün ikinci oyununda A qrupunda yer alan Uruqvay və Səudiyyə Ərəbistanı milliləri qarşılaşıblar.

"Rostov Arena"da keçirilən qarşılaşmada minimal hesabla qalib gələn Uruqvay yığması Rusiyadan sonra 1/8 finala vəsiqəni təmin edən ikinci komanda olub. Oyunun taleyini həll edən yeganə qol matçın 23-cü dəqiqəsində vurulub. Uruqvayın "barselona"lı hücumçusu Luis Suares topu yaxın məsafədən boş qapıya göndərib - 1:0. Bununla da Uruqvay millisinin heyətində 100-cü oyununa çıxan Luis Suares milli komandada 52-ci dəfə fərqlənib. Komandaların cəhdlərinə baxmayaraq, oyunda əlavə qol olmayıb.

Beləliklə, A qrupunda ilk turda Misir üzərindəki minimal hesablı qələbədən sonra Səudiyyə Ərəbistanı yığmasına da qalib gələn ikiqat dünya çempionları Rusiyadan sonra 1/8 finala vəsiqəni təmin ediblər. İki turdan sonra A qrupuna Rusiya yığması liderlik edir. Hər iki görüşdə məğlub olan Misir və Səudiyyə Ərəbistanı üçün isə mundial həyəcanı demək olar ki, başa çatıb.



### 54 dəqiqə müdafiə ilə qələbədən danışmaq olmaz

*B qrupu*

**İran - İspaniya - 0:1 (0:0)**
**Qol:** Dieqo Kosta, 54
**Sarı vərəqələr:** Vahid Amiri, 79; Omid Ebrahimi, 90+2
**Hakimlər:** Andres Kunya, Nikolas Taran, Maurisio Espinoza (hamısı Uruqvay)
*20 iyun. Kazan. "Kazan Arena", 42718 tamaşaçı*

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. İspaniya | 2 | 1 | 1 | 0 | 4-3 | 4 |
| 2. Portuqaliya | 2 | 1 | 1 | 0 | 4-3 | 4 |
| 3. İran | 2 | 1 | 0 | 1 | 1-1 | 3 |
| 4. Mərakeş | 2 | 0 | 0 | 2 | 0-2 | 0 |

Mundialın yeddinci gününə B qrupunda yer alan İran və İspaniya komandalarının oyunu ilə yekun vurulub. Oyunun aşkar favoriti "qırmızı furiya" olsa da, onlar bu oyunda çətinliklə qələbə qazandılar. Hətta vurulan yeganə qolu da onlar üçün "göydəndüşmə" adlandırmaq olar. Mundial ərzində rəqib qapılarına üç dəqiq zərbə endirən Dieqo Kosta bu dəfə də ispanlara lazım olan qələbəni qazandırmağı bacarıb - 1:0. Qeyd edək ki, bu, Dieqo Kostanın mundialda üçüncü qolu olub.

Bu qrupun lideri üçüncü turdan sonra müəyyənləşəcək.

İran millisi İspaniyaya məğlub olsa da, qrupdan çıxmaq şansını hələ də saxlayır. Bunun üçün iranlılar Portuqaliya yığmasına qalib gəlməlidirlər. "İran pələngləri"ndən fərqli olaraq, iki görüşdə məğlub olan Mərakeş yığmasının növbəti mərhələyə yüksəlmək şansı isə qalmayıb.




### "Kenqurular" "dinamitdən" qorxmur

*C qrupu*

II tur

**Danimarka - Avstraliya - 1:1 (1:1)**
**Qollar:** Kristian Eriksen, 7 - Mayl Yedinak, 39 (pen.)
**Sarı vərəqələr:** Yusuf Poulsen, 37; Sisto Pione, 84
**Hakimlər:** Antonio Mateu Laus, Roberto Dias Palomar, Pau Sebrian (hamısı İspaniya)
*21 iyun. Samara. "Kosmos Arena", 40727 tamaşaçı*

XXI dünya çempionatının 8-ci oyun günü C qrupunda yer alan Danimarka və Avstraliya yığma komandalarının qarşılaşması ilə başlayıb. Oyunda hesabı danimarkalılar açıb. "Dat dinamitləri"nin yarımmüdafiəçisi Kristian Eriksen baxımlı qol müəllifi olub - 1:0. Qoldan sonra irəli atılan avstraliyalılar birinci hissənin sonuna yeddi dəqiqə qalmış hesabı bərabərləşdirməyə nail oldular. Danimarkanın qapısına təyin olunmuş onbirmetrlik cərimə zərbəsini Mile Yedinak dəqiq yerinə yetirib. Komandaların cəhdlərinə baxmayaraq daha başqa qol olmayıb və oyun 1:1 hesabı ilə başa çatıb.

Qeyd edək ki, Avstraliya və Danimarka komandaları dünya futbol tarixində ilk dəfə üz-üzə gəliblər.

### Fransa futbol tarixində yeni imza: Mbappe

*C qrupu*

**Fransa - Peru - 1:0 (1:0)**
**Qol:** Kilyan Mbappe, 34
**Sarı vərəqələr:** Blez Matuidi, 16; Pol Poqba, 86 - Xose Paolo Gerrero, 23; Pedro Aqino, 81
**Hakimlər:** Mohammed Abdulla Hassan, Mohammed Al Yusuf, Hasan Mohammed Sukatari (hamısı Birləşmiş Ərəb Əmirlikləri)
***21 iyun. Yekaterinburq, "Sinara Arena", 32789 tamaşaçı***

Gününün ikinci oyununda C qrupunun digər iştirakçıları Fransa və Peru milliləri üzüzə gəlib. Qol baxımından məhsuldarlıq az olan çempionatın bu oyununda da vurulan 1 top həlledici olub.

Oyunda yeganə qol matçın 34-cü dəqiqəsində vurulub. Pol Poqbanın başladığı hücumu Kilyan Mbappe qola çevirib. 19 yaşlı forvardın vurduğu bu qol Mbappeni Fransa millisinin tarixində dünya çempionatlarında fərqlənən ən gənc futbolçuya çevirib.

Fransa millisi bu qələbə sayəsində Rusiya və Uruqvay millilərindən sonra 1/8 final mərhələsinə vəsiqə qazanan üçüncü komanda olub.

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Fransa | 2 | 2 | 0 | 0 | 3-1 | 6 |
| 2. Danimarka | 2 | 1 | 1 | 0 | 2-1 | 4 |
| 3. Avstraliya | 2 | 0 | 1 | 1 | 2-3 | 1 |
| 4. Peru | 2 | 0 | 0 | 2 | 0-2 | 0 |

*(ardı 5-ci səhifədə)*




*(əvvəli 4-cü səhifədə)*

# DÇ-2018: Çempionluq üçün tək namizəd yoxdur

## *Gizli favorit növbəti mərhələdə üzə çıxacaq*

### Messiyə güvənən dağlara qar yağdı

***D qrupu***

**II tur**

**Argentina - Xorvatiya - 0:3 (0:0)**
**Qollar:** Ante Rebiç, 54, Luka Modriç, 81, İvan Rakitiç, 90+1
**Sarı vərəqələr:** Qabriel Merkado, 51; Nikolas Otamendi, 85; Markos Akunya,



87 - Ante Rebiç, 39; Mario Manczukiç, 58; Şime Vrsaliko, 67; Marselo Brozoviç, 90
**Hakimlər:** Ravşan İrmatov, Abdulhamidullo Rasulov, Caxongir Saidov (hamısı Özbəkistan)
***21 iyun. Nijniy Novqorod. "Volqa Arena", 43319 tamaşaçı***

Mundialın 8-ci gününə D qrupunda yer alan Argentina - Xorvatiya komandalarının oyunu ilə yekun vurulub. Dünya çempionatına gözlənilmədən xal itkisi ilə başlayan cənubi amerikalılar prinsipial görüşə çıxıb. Lionel Messinin komandası bu oyunun favoriti hesab olunsa da, bu, nəticədə öz əksini tapmayıb. Oyun ərzində kortəbii hücumlar quran və qeyri-dəqiq ötürmələrlə yadda qalan Argentina millisinin köməyinə Lionel Messi də çata bilməyib. Nəticədə Xorxe Sampaolinin yetirmələri "damalılar"la oyundan 0:3 hesablı məğlubiyyətlə ayrılıblar. Beləliklə, argentinalılar 16 ildən sonra qrup mərhələsinin oyununda ilk dəfə məğlub oldular. Xorvatiya millisi isə bu qələbə ilə xallarının sayını 6-ya çatdıraraq 1/8 final mərhələsinə vəsiqəni təmin etdi.

Məlumat üçün qeyd edək ki, bu oyunadək 4 dəfə qarşılaşan komandaların statistikasında üstünlük Argentina millisinin xeyrinədir. Belə ki, Argentina millisi üç dəfə qələbə qazanıb, bir matçda hesab açılmayıb. İyirmi il əvvəl Fransada keçirilən dünya çempionatının qrup mərhələsində bu komandaların qarşılaşmasında Argentina millisi minimal hesabla qalib gəlib - 1:0.

### Pentakampeonlar üçün son saniyələr

***E qrupu***

**II tur**

**Braziliya - Kosta-Rika - 2:0 (0:0)**
**Qollar:** Filippe Koutinyo, 90+1; Neymar, 90+7
**Sarı vərəqələr:** Neymar, 81; Filippe Koutinyo, 81 - Conni Akosta, 84
**Hakimlər:** Byörn Kuypers, Sander van Rukel, Ervin Zeistra (hamısı Hollandiya)
***22 iyun. Sankt-Peterburq. "Zenit Arena", 64468 tamaşaçı***

XXI dünya çempionatının IX gününün ilk görüşündə E qrupunda yer alan Braziliya və Kosta-Rika milliləri qarşılaşıblar.

Sankt-Peterburq şəhərində oynanılan görüşdə braziliyalılar matçın taleyini əsas vaxta artırılan hissədə həll ediblər.

Qarşılaşmada böyük üstünlük nümayiş etdirən beşqat dünya çempionları matç ərzində kosta-rikalıların qapısına 23 zərbə endiriblər. Bu zərbələrdən 9-cu dəqiq olub. Braziliyalıların bütün cəhdlərinə baxmayaraq, hesab oyunun əsas vaxtına əlavə edilmiş hissədə açılıb. Filippe Koutinyo komandasını hesabda önə çıxarıb. Oyunun son dəqiqəsində Neymar komandasının üstünlüyünü iki topa çatdırıb.

Beləliklə, "sambaçı"lar Kosta-Rika ilə çətin qarşılaşmanı 2:0 hesabı ilə üstün başa vuraraq, 1/8 finala yüksəlmək üçün vacib üç xalı aktivlərinə yazdırıblar. Kosta-Rika yığması isə ardıcıl ikinci məğlubiyyətdən sonra səkkizdəbir finala çıxmaq şansını itirib.

Qeyd edək ki, bu oyun komandalar arasında üçüncü matç olub. Braziliya yığması Kosta-Rikanı 1990-cı ildə 1:0, 2002-ci ildə isə 5:2 hesabı ilə məğlubiyyətə uğradıb.

### Vikinqlər Afrikanın istisinə tab gətirmədilər

***D qrupu***

**Nigeriya - İslandiya - 2:0 (0:0)**
**Qollar:** Ahmed Musa, 49, 75
**Sarı vərəqə:** Brian İdovu, 44
**Hakimlər:** Mateu Konqer, Tevita Makasini, Saymont Launt (Yeni Zelandiya)
***22 iyun. Volqoqrad. "Sentral" stadionu, 40904 tamaşaçı***

Çempionatın ikinci oyununda D qrupunda yer alan İslandiya və Nigeriya milliləri üz-üzə gəliblər.

Görüşdə Nigeriya yığması 2:0 hesabı ilə qalib gələrək 1/8 finala gedən yolda vacib üç xal qazanıb. Nigeriya millisinin futbolçusu Ahmed Musa oyunda vurulan hər iki qolun müəllifi olub.

İlk oyunda Xorvatiyaya 0:2 hesablı məğlubiyyətdən sonra ikinci görüşdə eyni hesabla İslandiyaya qalib gələn Nigeriya yığması 1/8 finala yüksəlmək üçün vacib qələbə qazanıb. İki turdan sonra D qrupuna 6 xalla Xorvatiya başçılıq edir. Nigeriya millisi 3 xalla ikinci pillədə qərarlaşıb.

Qeyd edək ki, bu, Nigeriya yığmasının dünya çempionatlarında altıncı qələbəsidir. Nigeriyalılar bu qələbələrin hamısını Avropa təmsilçiləri üzərində qazanıblar. Afrika təmsilçisi 1994-cü ildə Bolqarıstan (3:0) və Yunanıstan (2:0) seçmələrini, 1998-ci ildə İspaniya (3:2) və Bolqarıstanı (1:0), 2014-cü ildə isə Bosniya və Herseqovinanı (1:0) məğlubiyyətə uğradıb.

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| *1. Xorvatiya* | 2 | 2 | 0 | 0 | 5-0 | 6 |
| *2. Nigeriya* | 2 | 1 | 0 | 1 | 2-2 | 3 |
| *3. İslandiya* | 2 | 0 | 1 | 1 | 1-3 | 1 |
| *4. Argentina* | 2 | 0 | 1 | 1 | 1-4 | 1 |

### DÇ-2018-də ilk geridönüş

***E qrupu***

**Serbiya-İsveçrə - 1:2 (1:0)**
**Qollar:** Aleksandr Mitroviç, 5 - Qranit Djaka, 52; Şerdan Şakiri, 90 Sarı vərəqələr: Saviç, 34; Luka Milivojeviç, 39; Nemanya Matiç, 45; Aleksandr Mitroviç, 87 - Şerdan Şakiri, 90
**Hakimlər:** Feliks Bryix, Mark Borş, Ştefan Lupp (hamısı Almaniya)
***22 iyun. Kalininqrad. "Baltika Arena", 33167 tamaşaçı***

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| *1. Braziliya* | 2 | 1 | 1 | 0 | 3-1 | 4 |
| *2. İsveçrə* | 2 | 1 | 1 | 0 | 3-2 | 4 |
| *3. Serbiya* | 2 | 1 | 0 | 1 | 2-2 | 3 |
| *4. Kosta-Rika* | 2 | 0 | 0 | 2 | 0-3 | 0 |

Günün sonuncu oyununda E qrupunda yer alan Serbiya və İsveçrə milliləri qarşılaşıblar. Oyunda erkən qolla hesabda önə keçən "ağ qartallar" bu üstünlüyünü ikinci hissədə qoruya bilməyib. Fasilədən sonra hücumların kəsərini artıran İsveçrə millisi 52-ci dəqiqədə hesaba tarazlıq gətirib. Oyunda son nöqtəni də isveçrəlilər qoyublar. Komandanın əsas qol silahı olan Şerdan Şakiri qapıçı ilə təkbətək mübarizədən qalib ayrılıb - 1:2.

Beləliklə, İsveçrə millisi fasiləyə məğlub durumda yolansa da sonrakı hissədə vurduğu iki qolla 2:1 hesablı qələbə qazanıb.

Mundialın E qrupuna hərəyə 4 xal toplayan Braziliya və İsveçrə yığmaları başçılıq edir, Serbiya yığması isə 3 xalla üçüncü yerdə qərarlaşıb.

Braziliya və Serbiya yığmalarına məğlub olan Kosta-Rika millisi 1/8 finala yüksəlmək şansını itirib.

Qeyd edək ki, Serbiya və İsveçrə yığmaları ilk dəfədir ki, qarşılaşırlar. İsveçrəlilərin dünya çempionatlarında debütü 1934-cü ildə olub. Onlar mundialda on birinci dəfədir ki, iştirak edirlər və ən yaxşı nəticəni 1934-cü, 1938-ci və 1954-cü illərdə göstərərək dördədbir final mərhələsinə vəsiqə qazanıblar.

### "Karfagen qartalları" da "Qırmızı şeytanlar"la bacarmadı

***G qrupu***

**II tur**

**Belçika - Tunis - 5:2 (3:1)**
**Qollar:** Eden Hazard, 6 (pen); 51, Romelu Lukaku, 16; 45+3, Batşuayi, 90 - Bronn, 18, Xazri, 90+3
**Sarı vərəqə:** Fercani Sassi, 14.
**Hakimlər:** Jair Marrufo, Kori Rokuell, Xuan Sumba (hamısı ABŞ)
***23 iyun. Moskva. "Spartak" stadionu, 44190 tamaşaçı***



Çempionatın 10-cu gününün ilk oyunu "G" qrupunda yer alan Belçika və Tunis milliləri arasında keçirilib. Moskvadakı "Spartak" stadionunda keçirilən oyunda çempionatın növbəti böyükhesablı qələbəsi qeydə alınıb. Heyətində ulduz futbolçuların çoxluq təşkil etdiyi "köhnə qitə" təmsilçiləri bu görüşdə 5:2 hesablı qələbə qazanıblar.

Beləliklə, Belçika millisi mundialda ikinci qələbəsini qazanaraq Rusiya, Uruqvay və Xorvatiyadan sonra pley-off mərhələsinə yüksələn dördüncü komanda olub. Tunis yığması isə çempionatda ikinci məğlubiyyətini alaraq növbəti mərhələyə çıxmaq şansın itirib. Qeyd edək ki, heyətindəki futbolçuların qiymətinə görə çempionatın ən bahalı komandalarından olan Belçika yığması doqquz dəfə mundialda iştirak hüququ qazanıb. Belçikalıların dünya çempionatlarında ən yaxşı göstəricisi 1986-cı ildə bürünc mükafat qazanması olub.

1978-ci ildə dünya çempionatında debüt edən Tunis millisi mundiallarda ilk qələbəsini elə həmin il Meksika üzərində qazanıb: 3:1. Bununla da Tunis dünya çempionatlarında qalib gələn ilk Afrika ölkəsi olub. Sonralar isə 1998-ci, 2002-ci və 2006-cı illərdə mundiallarda yer alsa da, mübarizəni qrup mərhələlərində dayandırıb.

### Cənubluların duelində "Mesika dalğası"

***F qrupu***

**II tur**

**Cənubi Koreya - Meksika - 1:2 (0:1)**
**Qollar:** Son, 90+3 - Karlos Vela, 26 (pen.), Xavier Hernandez, 66
**Sarı vərəqə:** Kim Yunq Qvon, 58; Li Yonq, 63; Ju Se Yonq, 72; Yonq Vo Yunq, 80
**Hakimlər:** Milorad Maziç, Dalibor Curceviç, Milovan Ristiç (hamısı Serbiya)
***23 iyun. Rostov. "Levberdon Arena", 43472 tamaşaçı***

Günün ikinci qarşılaşmasında F qrupundakı komandalar meydana çıxıb. Əvvəlcə Meksika ilə Cənubi Koreya üz-üzə gəlib. İlk turda Almaniyanı məğlub edən meksikalılar bu görüşü də 3 xalla başa vurublar. Oyun "üçrənglilər"in 1:2 hesablı qələbəsi ilə başa çatıb. Meksika komandası bu qələbə ilə xalların sayını 6-ya çatdırıb.

Qeyd edək ki, bundan əvvəl dünya çempionatlarında 9 dəfə iştirak edən Cənubi Koreya yalnız bir dəfə qrupdan çıxa bilib. Cənubi koreyalılar 2002-ci ildə Yaponiya ilə birlikdə ev sahibliyi etdikləri dünya çempionatında yarımfinala qədər irəliləmişdilər. Yarımfinalda Almaniya yığmasına məğlub olan Cənubi Koreya üçüncü yer uğrunda görüşdə Türkiyə millisinə uduzmuşdu.

1930-cu ildə keçirilmiş ilk dünya çempionatının iştirakçısı olan Meksika yığması mundiallarda indiyədək 16 dəfə çıxış edib və ən yaxşı nəticəni 1970-ci və 1980-ci illərdə göstərərək dördədbir final mərhələsinə qədər irəliləyib. Bundan əlavə, 1970-ci və 1986-cı illərdə futbol üzrə dünya çempionatları Meksikada keçirilib. Meksika, həmçinin ABŞ və Kanada ilə birlikdə 2026-cı ildəki mundiala da ev sahibliyi edəcək.

*(ardı 6-cı səhifədə)*




# DÇ-2018: Çempionluq üçün tək namizəd yoxdur

## *Gizli favorit növbəti mərhələdə üzə çıxacaq*




*(əvvəli 5-ci səhifədə)*

### Sən demə, "Alman maşını" nasaz deyilmiş

***F qrupu***

**Almaniya - İsveç - 2:1 (0:1)**
**Qollar:** Marko Roys, 47, Toni Kroos, 90+5 - Toyvonen, 31
**Sarı vərəqələr:** Jerom Boatenq, 71, 82 - Albin Ekdal, 52; Sebastian Larsson, 90+4
**Qırmızı vərəqə:** Jerom Boatenq, 82 (ikinci sarı)
**Hakimlər:** Şimon Marçinyak, Tomaş Listkeviç, Pavel Sokolniçki (hamısı Polşa)
***23 iyun. Soçi. "Fişt" stadionu, 44287 tamaşaçı***

Günün son qarşılaşmasında isə Almaniya İsveçlə qarşılaşıb. Mundialın favoritlərindən hesab olunan sonuncu dünya çempionlarına bu oyunda qələbə hava-su kimi lazım idi. Birinci turda Meksika millisinə 1:0 hesabı ilə məğlub olan "bundestim" 1/8 finala yüksəlmək şansını əldən buraxmamaq üçün bu görüşdə mütləq qələbə qazanmalı idi. Əks təqdirdə çempionatla vidalaşacaq növbəti komanda Almaniya millisi olacaqdı. Gərgin və dramatik məcrada davam edən oyunda hesabı isveçlilər açıblar. İlk hissə bu hesabla başa çatsa da, "bundestim" ikinci hissəyə qolla başlayıb. Roys hesabı bərabərləşdirib. Oyunun 82 dəqiqəsində Jerom Boatenq ikinci dəfə sarı vərəqə ilə cəzalandırılaraq meydandan qovulub. Lakin buna baxmayaraq, Almaniya millisi çətin keçən oyunda lazım olan qolu vurmağı bacarıb. Oyuna əlavə olunmuş 5-ci dəqiqədə Toni Kroos cərimə zərbəsindən fərqlənərək komandasına qələbə qazandırıb.

Beləliklə, Almaniya yığması mundialın ikinci oyununda çətin və çox mühüm 3 xalı aktivinə yaza bilib.

F qrupuna hazırda 6 xala malik Meksika millisi başçılıq edir. Hər birinin hesabında 3 xal olan İsveç və Almaniya yığmaları ikinci və üçüncü yerləri bölüşürlər.

Xatırladaq ki, Almaniya komandası dörd dəfə - 1954-cü, 1974-cü, 1990-cı və 2014-cü illərdə dünya çempionu adını qazanıb.

İsveçlilər 1958-ci ildə VI dünya çempionatına ev sahibliyi ediblər. İndiyədək 11 mundialda iştirak edən İsveç bir dəfə ikinci (1958), iki dəfə üçüncü yeri tutub (1950, 1994). Milli komandanın tarixində ən çox qol vuran oyunçu Zlatan İbrahimoviç (116 oyunda 62 qol), ən çox oyun keçirən isə Anders Svenssondur (148 oyun).

### Amansız ingilislər, məğlubiyyəti bayram edən panamalılar

***G qrupu***

**İngiltərə - Panama - 6:1 (5:0)**
**Qollar:** Con Stons, 9, 40, Harri Keyn, 22 (pen.), 45 (pen.), 63, Cesi Linqard, 36 - Felipe Baloy, 78
**Sarı vərəqələr:** Ruben Loftus Çik, 24 - Armando Kuper, 10; Fidel Eskobar, 44; Mixail Murilyo, 72
**Hakimlər:** Gehad Qrişa, Reduan Aşık, Ahmed Ali Valid (hamısı Misir)
*24 iyun. Nijni Novqorod. "Volqa Arena", 43319 tamaşaçı*

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Belçika | 2 | 2 | 0 | 0 | 8:2 | 6 |
| 2. İngiltərə | 2 | 2 | 0 | 0 | 8:2 | 6 |
| 3. Tunis | 2 | 0 | 0 | 2 | 3:7 | 0 |
| 4. Panama | 2 | 0 | 0 | 2 | 1:9 | 0 |

Dünya çempionatında 11-ci günün oyunları G qrupunda yer alan komandaların qarşılaşması ilə start götürüb. İlk oyunda Tunisə çətinliklə qalib gələn İngiltərə bu dəfə debütant və turnirin ən zəif komandalarından biri olan Panama ilə qarşılaşıb. Qarri Sautqeytin yetirmələri oynda rəqiblərinə heç bir şans verməyib. Kapitan Harri Keynin 3 qol vurduğu oyunda İngiltərə millisi 6:1 hesabı ilə qalib gəlib.

Qeyd dək ki, het-trik müəllifi olan Harri Keyn çempionatda vurduğu qolların sayını 5 çatdıraraq bombardirlər cədvəlində birinci sıraya yüksəlib. Böyük britaniyalılar bu qələbə ilə həmçinin Belçika ilə birlikdə növbəti mərhələyə yüksəlməyi təmin ediblər. Aktivlərində xal olmayan Panama və Tunis komandaları üçüncü və dördüncü yerləri bölüşürlər.

Qeyd edək, sonuncu dəfə birinci hissədə dörd qol 2014-ci ildə Braziliyada təşkil olunan mundialın yarımfinal mərhələsində mübarizə aparan Almaniya və Braziliya oyununda qeydə alınmışdı.

Məlumat üçün bildirək ki, G qrupu mundialın ən çox qol vurulan (20 qol) qrupudur.

Qeyd edək ki, indiyədək 14 dəfə mundiallarda iştirak edən "dumanlı Albion" təmsilçisi 1966-cı ildə ev sahibliyi etdiyi səkkizinci dünya çempionatının finalında Almaniya yığmasına 4:2 hesabı ilə qalib gələrək çempion olub. Xatırladaq ki, həmin görüşdə hesab 2:2 olarkən azərbaycanlı yan xətt hakimi Tofiq Bəhramovun rəyi əsasında baş hakim ingilislərin hücumçusu Herstin qolunun qeydə alınması barədə qərar qəbul edib. Bu qoldan sonra bir dəfə də fərqlənən İngiltərə yığması tarixində ilk və yeganə çempionluğuna nail olub.

İngiltərə yığması mundialda yeganə komandadır ki, heyətindəki futbolçuların hamısı ölkə çempionatında - Premyer Liqada çıxış edir.

Panama yığması isə tarixində ilk dəfə mundialda mübarizə aparır.



### Cəsur "samuraylar" "teranqa şirləri"ndən çəkinmədi

***H qrupu***

**II tur**

**Yaponiya - Seneqal - 2:2 (1:1)**
**Qollar:** Takaşi İnui, 34, Keysuke Honda, 78 - Sadio Mane, 11, Mussa Vaque, 71
**Sarı vərəqələr:** Takaşi İnui, 68; Makoto Hasebe, 90 - Mbaye Nyanq, 59; Yussuf Sabali, 92; Şeyx Ndoye, 92
**Hakimlər:** Canluka Rokki, Mauro Tonolini, Elenito de Libertadore (hamısı İtaliya)
***24 iyun. Yekaterinburq, "Sinara Arena", 32572 tamaşaçı***

Günün ikinci oyunu H qrupunun iştirakçıları arasında keçirilib. "Sinara Arenada" təşkil olunan görüşdə Yaponiya və Seneqal millilləri qarşılaşıblar. Gərgin mübarizə şəraitində keçən oyunda qalib müəyyənləşməyib. İki dəfə hesabda önə keçən "teranqa aslanları" üstünlüyünü sona qədər qoruya bilməyiblər. Keysuke Honda 78-ci dəqiqədə fərqlənərək "göy samurayları" məğlubiyyətdən xilas edib - 2:2. Beləliklə, görüş 2:2 hesabı ilə başa çatıb.

Xatırladaq ki, Seneqal yığması qrupun ilk turunda Polşa millisini 2:1 hesabı ilə məğlub edib. Yaponiya isə birinci turda gözlənilmədən Kolumbiya yığmasından üstün olub (2:1).

Qeyd edək ki, Seneqal millisinin dünya çempionatlarının final mərhələsi ilə tanışlığı 2002-ci ilə təsadüf edir. Afrika təmsilçisinin ən uğurlu çıxışı da, məhz həmin çempionatda olub. Həmin mundialın açılış matçında dünya çempionu Fransanı məğlub edən və 1/4 finaladək irəliləyən Seneqal yığmasının qarşısını Türkiyə millisi kəsib.

Yaponiya yığması isə bundan əvvəl üç dəfə mundiallarda çıxış etmək hüququ qazanıb. Gündoğar ölkə təmsilçilərinin ən uğurlu çıxışı 2002-ci ildə Koreya Respublikası ilə birgə ev sahibliyi etdikləri dünya çempionatında olub. Həmin mundialda qrup birincisi kimi səkkizdəbir finala yüksələn yaponlar Türkiyə millisinə 0:1 hesabı ilə məğlub olaraq mübarizəni dayandırıblar.



### İddialı "panlar"ın Rusiya sərgüzəşti sona çatdı

***H qrupu***

**Polşa - Kolumbiya - 0:3 (0:1)**
**Qollar:** Yerri Mina, 40, Radamel Falkao, 70, Xuan Kuadrado, 76
**Sarı vərəqələr:** Yan Bednarek, 61; Yacek Qoralski, 85
**Hakimlər:** Sezar Ramos, Marvin Torrentera, Migel Anxel Ernandes (hamısı Meksika)
*24 iyun. Kazan. "Kazan Arena", 42873 tamaşaçı*

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Yaponiya | 2 | 1 | 1 | 0 | 4:3 | 4 |
| 2. Seneqal | 2 | 1 | 1 | 0 | 4:3 | 4 |
| 3. Kolumbiya | 2 | 1 | 0 | 1 | 4:2 | 3 |
| 4. Polşa | 2 | 0 | 0 | 2 | 1:5 | 0 |

11 günün sonuncu görüşündə H qrupunda yer alan Polşa və Kolumbiya millilləri qarşılaşıblar. Bununla da ikinci turun bütün oyunlarına yekun vurulub. "Kazan Arena"da keçirilən oyunda Kolumbiya millisi qələbə qazanıb -0:3.

Beləliklə, "qəhvəçilər" vacib 3 xalı aktivinə yaza bilib. Seneqal millisindən sonra Kolumbiya komandasına da məğlub olan "ağ qartallar" isə səkkizdəbir final mərhələsinə çıxmaq şansını itiriblər.

Qeyd edək ki, Avropa təmsilçisi yeddi dəfə mundialda iştirak etmək hüququ qazanıb. Polşalılar dünya çempionatının ikiqat bürünc mükafatçısıdırlar (1974, 1982). "Ağ qartallar"ın əsas qol silahı sayılan Robert Levandovski 91 qolla ən çox fərqlənən oyunçu kimi milli komandanın tarixinə düşüb.

Mundiallarda 1962-ci ildə debüt edən Kolumbiya millisi isə dünya çempionatında indiyədək altı dəfə oynamaq hüququ qazanıb. Bu komandanın çempionatlarda ən yaxşı göstəricisi 2014-cü ildə Braziliyada təşkil olunan dünya çempionatına təsadüf edib. Həmin mundialda dörddəbir finaladək irəliləyən Kolumbiya yığması ev sahibinə 1:2 hesabı ilə məğlub olaraq mübarizəni dayandırıb.

### DÇ-2018-in bombardirləri

1. *Harri Keyn (İngiltərə) - 5 qol*
2. *Kriştianu Ronaldu (Portuqaliya) - 4*
3. *Romelu Lukaku (Belçika) - 4*
4. *Denis Çerışev (Rusiya) - 3*
5. *Dieqo Kosta (İspaniya) - 3*
6. *Artyom Dzyuba (Rusiya) - 2*
7. *Luka Modriç (Xorvatiya) - 2*
8. *Filippe Koutinyo (Braziliya) - 2*
9. *Eden Hazard (Belçika) - 2*
10. *Con Stons (İngiltərə) - 2*

### Bu günün təqvimi

***C qrupu***

**26 iyun. Saat 18:00. Avstraliya - Peru**
*Soçi. "Fişt" stadionu*

**26 iyun. Saat 18:00. Danimarka - Fransa**
*Moskva. "Lujniki" stadionu.*

***D qrupu***

**26 iyun. 22:00. İslandiya - Xorvatiya**
*Rostov "Levberdon Arena".*

**26 iyun. 22:00. Nigeriya - Argentina**
*Sankt-Peterburq. (Zenit Arena)*

***Xüsusi buraxılışı hazırladılar:***
***Anar Əhmədov,***
***Azər Əlizadə***

## "Məhsul" İC-in pəhləvanı bürünc medal qazanıb

Macarıstanın Györ şəhərində 2003-2004-cü illər təvəllüdlü yeniyetmələr arasında Avropa



çempionatı keçirilib. Çempionatda iştirak edən kiçik yaşlı yeniyetmələrdən ibarət yığmamızın üzvləri 1 qızıl, 1 gümüş və 4 bürünc medal qazanıblar. Yarışda "Məhsul" idman cəmiyyətinin yetirməsi də mübarizə aparıb. Sərbəst güləş yarışlarında qüvvəsini sınayan "Məhsul" İC-in təmsilçisi Varis Mehdizadə (75 kq) turniri bürünc medalla başa vurub.

## "Proqres"lə ilk oyun Qəbələdə keçiriləcək

"Qəbələ" futbol klubunun UEFA Avropa Liqasının birinci təsnifat mərhələsində "Proqres"ə qarşı keçirəcəyi oyunların yeri dəyişdirilib.

İyulun 12-də təşkil olunacaq ilk qarşılaşma Qəbələ şəhər stadionunda keçiriləcək. Görüş saat 20:00-da başlayacaq.

Komandalar arasında cavab oyunu isə iyulun 19-da Lüksemburqda keçiriləcək.

## Avropa Liqası turnirinə yekun vurulub

Bakıda təşkil edilən çimərlik futbolu üzrə Avropa Liqası turnirində III turun oyunları keçirilib.

Turnirin sonuncu oyununda Azərbaycan milli komandası Portuqaliya yığması ilə qarşılaşıb. Görüş rəqibin 6:0 hesablı qələbəsi ilə başa çatıb.

Oyunlar başa çatdıqdan sonra mükafatlandırma mərasimi keçirilib. Portuqaliya millisindən Andrade Elinton turnirin ən yaxşı qapıçısı, Leonardo Santos isə ən yaxşı oyunçusu seçilib. Hərəyə 6 qol vuran İsveçrə millisinin üzvləri Dejan Stankoviç və Noel




Ott turnirin ən məhsuldar oyunçuları olublar. Müvafiq olaraq birinci və ikinci qrupun qalibi olan Portuqaliya və Ukrayna komandalarına kubok təqdim edilib.

Komandalara mükafatları Azərbaycan Çimərlik Futbolu Federasiyasının prezidenti Fərid Novruzi, vitse-prezident Fərid Axundov, Dünya Çimərlik Futbolu Federasiyasının vitse-prezidentinin müavini Gabina Renales veriblər.

## Qrossmeysterimiz bu dəfə 8-ci oldu

Şahmat üzrə keçirilən "Grand Chess Tour" seriyasının rapid və blits mərhələlərinə yekun vurulub. Fransanın paytaxtı Parisdə keçirilən turnirdə rapid növü üzrə son üç turun oyunları təmsilçimiz üçün uğurlu olmayıb. Aleksandr Qrişuku məğlub edən Şəhriyar Məmmədyarov Maksim Vaşye-Laqravla bacarmayıb. Azərbaycanlı qrossmeyster Hikaru Nakamura ilə isə heç-heçə edib. Beləliklə, ümumilikdə 7 xal toplayan Şəhriyar Məmmədyarov rapid üzrə yarışlarda 9-cu yeri tutub.

"Grand Chess Tour" seriyasının növbəti mərhələsi də qrossmeysterimiz üçün uğurlu olmayıb. Belə ki, rapid növündə 9-cu olan həmyerlimiz blitsdə 8-ci olub. O, 17 oyunda 8,5 xal toplayıb. Nəticədə Şəhriyar Məmmədyarov 2 yarışın nəticəsinə əsasən 15,5 xalla Paris mərhələsini 8-ci yerdə bitirib.

10 ən güclü şahmatçının iştirakı ilə keçirilən "Grand Chess Tour"un III mərhələsi avqustun 9-16-da Sent-Luisdə (ABŞ) təşkil olunacaq.

# "Azərenerji" ASC: tarixi inkişaf yolu və strateji hədəflərə doğru"

*Hər bir ölkənin inkişafını təmin edən, müəyyən edən onun enerji potensialıdır*

*İlham Əliyev*

***Demək olar ki, ilin 365 gününün hər biri təqvimdə əlamətdar hadisələrlə zəngindir. Təqvimi açıb, oktyabr ayının 20-si tarixinə baxaq. Bu tarixdə dünyada bir sıra maraqlı hadisələr baş verib. Məsələn, bu tarixdə Türkiyənin "Qalatasaray" klubu yaradılıb. Norveçli dəniz səyyahı Rual Amundsen Cənub qütbünə yola düşüb. Fransada qadınlara seçkidə iştirak etmək hüququ verilib və s. Bəs bu tarix ölkəmizdə hansı əlamətdar hadisələrlə yadda qalıb. Apardığımız araşdırmalara görə, hələ SSRİ dövründə (1923) ilk dəfə olaraq ölkə vətəndaşları bütün yazışmalarını latın qrafikasında aparıblar. Müstəqillik dövründə də 20 oktyabr tarixi əlamətdar hadisələrlə zənginləşib. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 13 oktyabr 2004-cü il tarixli 446 saylı sərəncamı ilə həmin tarix ölkəmizdə "Energetiklər Günü" kimi təsis edilmişdir.***





### Keçmişi yaddan çıxarıb, gələcəyə boylanmaq olmaz

Bu gün "Azərenerji" İstehsalat Birliyi ölkədə elektrik enerjisinin bir sahədən istiqamətləndirilməsinə rəhbərlik edir. Buna qədər enerji sahəsində bir sıra qurumlar fəaliyyət göstərib. Yenidən tarixə nəzər salaq. Görəcəyik ki, hər şey "Elektrotok"dan başlayıb. Belə ki, adı çəkilən idarə 1935-ci ildə SSRİ (Sovet Sosialist Respublikalar İttifaqı) Ağır Sənaye Xalq Komissarının 29 iyul tarixli əmrilə "Azneft"in tərkibindən çıxarılaraq, SSRİ Ağır Sənaye Xalq Komissarlığının "Başenerji" Baş Enerji İdarəsinin tabeliyinə verilib. Onun bazasında"Başenerji" Baş Enerji İdarəsinin "Azenerji" Azərbaycan Rayon Enerji İdarəsi yaradılıb.

"Azneft" trestinin 15 avqust 1935-ci il tarixli əmri ilə "Elektrotok" İdarəsi, tərkibində olan müəssisələrlə birlikdə, yeni yaradılmış"Azenerji"Azərbaycan Rayon Enerji İdarəsinin tərkibinə verilib və 20 oktyabr 1935-ci il tarixindən "Azenerji" Azərbaycan Rayon Enerji İdarəsi rəsmi fəaliyyətə başlayıb. Təxminən 35 il bu idarə bu ad altında fəaliyyətini davam etdirib. Lakin 1970-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin "Azərbaycan SSR ərazisində yerləşən energetika müəssisə və təşkilatlarının SSRİ Energetika və Elektrikləşdirmə Nazirliyinin tabeliyinə verilməsi haqqında" qərarı ilə adı çəkilən nazirliyin tərkibində "Azenerji"İstehsalat Birliyi yaradılmışdır.

1988-ci ildə SSRİ Energetika və Elektrikləşdirmə Nazirliyi Azərbaycan SSR Energetika və Elektrikləşdirmə "Azbaşenerji" Baş İstehsalat Birliyi ləğv edilir və onun bazasında Azərbaycan SSR Energetika və Elektrikləşdirmə "Azenerji" İstehsalat Birliyinin əsası qoyulmuşdur.

1993-cü ildə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən Azərbaycan Respublikası Nazirlər Sovetinin 14 iyun 1993-cü il tarixli sərəncamı ilə Azərbaycan SSR Energetika və Elektrikləşdirmə "Azenerji" İstehsalat Birliyi Azərbaycan Respublikası Elektroenergetika və Elektrikləşdirmə "Azərenerji" Dövlət Şirkətinə çevrilmişdir.

1996-cı ildə Azərbaycan Respublikası Prezidentinin 17 sentyabr 1996-cı il tarixli fərmanına əsasən ilkin mərhələdə səhmləri 100 faiz dövlətə məxsus olmaqla, "Azərenerji" Açıq tipli Səhmdar Cəmiyyəti təsis edilib. "Azərenerji" ASC-nin səhmləri buraxılmamışdır. Azərbaycan Respublikasında elektrik enerjisinin istehsalının və ötürülməsinin idarə edilməsi Səhmdar Cəmiyyətin əsas funksiyasını təşkil edir.

### Evimizə nur saçan işığımız Mingəçevirdən gəlir

Hələ uşaq vaxtı evimizi nura qərq edən işığın Mingəçevirdən bizə gəlib çatdığını eşitmişdik. Buna heyrətlə baxırdıq. Axı bu necə ola bilər. Zaman keçdikcə, məktəbdəki fizika dərslərində bunun açıqlamasını gördük. Məlum oldu ki, işıq üçün yer kürəsində elədə böyük ərazi yoxdur. Müəllimlərimiz başı saldı ki, işıq insanların görə biləcəyi elektromaqnit şüalanmadır və 1 saniyədə 300min km (Tam olaraq 299,792,458 m/s'dir - red) qət edir.

Doğrudan da Mingəçevir Su Elektrik Stansiyasının (SES) ölkənin elektrik enerjisi təminatında xüsusi rolu var. Bu SES Cənubi Qafqazda ən böyük su elektrik stansiyası olub, Kür çayının üzərində, Mingəçevir şəhərinin yaxınlığında yerləşir.

Tarixə nəzərə salsaq görərik ki, stansiyanın tikintisinə 1945-ci ildə başlanılmış, 1953-cü ildə ilk hidroaqreqat, 1954-cü ildə stansiya tam gücü ilə işə salınmışdır. Belə ki, Azərbaycanın müxtəlif rayonlarından Mingəçevir su elektrik stansiyasının tikilişi üçün böyük sayda işçi qüvvəsi





gəlib. Aldığımız məlumata görə bu stansiyanın tikilməsində 20 minə yaxın insan iştirak edib. 1940-cı illərin sonlarına doğru 10 minə yaxın alman hərbi əsirləri bu stansiyanın quraşdırılmasına cəlb edilib. Ölkənin ən təcrübəli mütəxəssisləri tikinti meydançasının - postsovet məkanının ən böyük su elektrik stansiyasının quraşdırılmasında öz töhfələrini verib. Maraqlıdır ki, bugünkü Mingəçevir şəhəri su elektrik stansiyasının tikilməsilə əlaqədar olaraq yaradılıb və 1948-ci ildə şəhər statusu alıb. SES 1953-1959-cu illərdə doldurulan, su tutumu 16070 milyon $m^2$ kv.m-ə bərabər olan su anbarının üzərində tikilib. Mingəçevir SES-in müəyyən olunmuş gücü 359 Mvt, orta illik elektrik enerjisi istehsalı 1,4 milyard kvt/saat-dır. Qovşağın ən əsas orijinal hissəsi yüksək təzyiqli torpaq bəndi nəinki Avropada yuyulma üsulu ilə tikilmiş ən nəhəng (hündürlüyü 80 m) bənddir. O, işlənən materialların həcminə görə, həm də dünyada çınqıl-qumdan tökülmüş yeganə bənddir.

### Elektrik enerjisi sahəsində böyük yüksəliş

Məlumdur ki, son illər Azərbaycanda energetika sahəsində çox mühüm layihələr icra olunub. Bu istiqamətdə həyata keçirilən işlər müsbət nəticəsini verməkdədir. Energetika sahəsinin inkişafı ilə bağlı görülən işlər arasında müxtəlif gücə malik yeni elektrik stansiyalarının yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması nəzərdə tutulub. Bu sahədə aparılan islahatlar nəticəsində elektrik stansiyaları həm texniki, həm də görünüş baxımından müasirləşir, onların gücü artırılır. Son onillikdə ölkədə 30 yeni elektrik stansiyası tikilərək istismara verilib, mövcud generasiya müəssisələri yenidən qurularaq müasirləşdirilib. Elektrik enerjisinin istehsal potensialı ölkədaxili tələbatı tam ödəməklə yanaşı, ixrac imkanı da yaradıb.



Qeyd etdiyimiz kimi, Azərbaycanın enerji təminatında Mingəçevir Su Elektrik Stansiyasının xüsusi yeri və çəkisi var. Müstəqillik illərində Mingəçevir Su Elektrik Stansiyasında yenidənqurma işlərinin aparılmasına ulu öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə başlanılıb. Bu prosesin davamı olaraq, 2010-2017-ci illərdə burada əsaslı yenidənqurma işləri həyata keçirilib.

Ulu öndərin strateji inkişaf konsepsiyası əsasında son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla gerçəkləşdirilən sosial-iqtisadi islahatlar çərçivəsində elektrik energetikası üzrə qəbul edilən dövlət proqramları və onların icrası bu sahədə yeni bir mərhələ açmışdır. Qeyd edək ki, hazırda elektrik enerjisinə tələbatı tam ödəyən Azərbaycan özünün karbohidrogen resursları ilə yanaşı, elektrik enerjisinin də ixracatçısına çevrilib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, təkcə 2017-ci ildə Azərbaycandan 1 milyard 160 milyon 196 min kilovatsaat elektrik enerjisi ixrac olunub, bunun da dəyəri 50 milyon 968 min ABŞ dolları təşkil edib. Cari ilin yanvar-aprel aylarında isə 987 milyon 949 min kilovatsaat, yəni 47 milyon 303 min ABŞ dolları dəyərində elektrik enerjisi ixrac olunub.

Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə son 15 ildə ölkə daxilində enerji təminatı əsaslı şəkildə yaxşılaşdırılıb. Belə ki, ölkəmizin hazırkı ümumi generasiya gücü təqribən 6,5 min meqavat təşkil edir. 15 il ərzində 3,9 min meqavat ərsəyə gətirilib. Bir sözlə, Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib.

Bu gün respublikamızda alternativ və bərpaolunan enerji mənbələrinin inkişafına da mühüm önəm verilir. Məhz elə buna görədir ki, qarşıdakı iki il yarım ərzində alternativ və bərpaolunan enerji mənbələrinin Azərbaycanın ümumi enerji balansındakı payının 20 faizə çatdırılması gözlənilir.

Ölkəmizdə enerji potensialı Günəş enerjisi üzrə 50 meqavat, külək enerjisi üzrə 350 meqavat, biokütlə üzrə isə 20 meqavat həcmində müəyyənləşdirilib. Bu sahələrə təxminən 1 milyard 40 milyon manat investisiyanın sərf olunması planlaşdırılıb.

### Ucqarlarda belə işıqsız qalan ev yoxdur

"Azərenerji" hazırda ölkənin elektrik enerjisi istehsalı sahəsində əsas qurum sayılır. Onun fəaliyyət dairəsi günü-gündən artır. Dövlət tərəfindən bu quruma göstərilən diqqət sayəsində ölkədə elektrik enerjisi sahəsində yaranmış problemlər aradan qaldırılıb. Artıq paytaxtla yanaşı ucqarlarda belə işıqsız qalan ev yoxdur. Bu insanların rifahına və həyat tərzinə birbaşa təsir edən amillərdəndir.

Bunu qurumun son illərdəki fəaliyyətinə nəzər salanda aydın görmək olur. Belə ki, hazırda Cəmiyyətin tərkibində gərginliyi 500, 330, 220 və 110 kilovolt olan 200-dən artıq yarımstansiya; "Mingəçevir", "Varvara", "Şəmkir", "Yenikənd", "Araz" və "Vayxır" daxil olmaqla 6 ədəd su elektrik stansiyası (SES), "Azərbaycan", "Şirvan", "Şimal", "Bakı İEM", "Babək", "Astara", "Şəki", "Xaçmaz", "Naxçıvan", "Bakı", "Səngəçal", "Şahdağ" və "Sumqayıt" istilik elektrik stansiyaları (İES) daxildir. Yaxın bir neçə il ərzində bir sıra yeni stansiya və yarımstansiyaların, elektrik verilişi xətlərinin tikintisi və mövcud obyektlərin əsaslı yenidən qurulması planlaşdırılır.

Qeyd etmək lazımdır ki, hazırda "Azərenerji" ASC-nin elektrik verilişi xətlərinin ümumi uzunluğu (gərginliyi 35, 10, 6 və 0,4 kilovolt olan paylayıcı xətlər də daxil olmaqla) 100 000 kilometrdən artıqdır.

Sonda qeyd edək ki, doğrudan da enerjisiz həyat, işıqsız gələcək yoxdur. İnkişafına görə bir sıra ölkələri qabaqlayan Azərbaycan hər bir sahədə olduğu kimi enerji sektorunda da liderdir. Daha işıqlı sabahlara doğru daim irəli!

*Azər Əlizadə*

Yazı "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilib.

# DÜNYA idmanı



## Boksçu titulunu qaytarmaq istəyir

Boks üzrə keçmiş dünya çempionu Tayson Fyuri öz planlarından danışıb.
Məşhur boksçu deyib: "Mən rinqdə Coşua və Uaylderlə görüşmək istəyirəm. Məqsədim dünya çempionu titulunu geri qaytarmaqdır. Sadəcə, tələsmək istəmirəm. Çünki möhtəşəm döyüşlərin asan təşkil olunmadığını bilirəm. Düz 5 il Vladimir Kliçkonu izləmişəm ki, onunla rinqə çıxa bilim. Ukraynalı boksçu ilə rinqə çıxmamışdan əvvəl 3 il ərzində iki təkbətək döyüş keçirmişdim. Coşua və Uaylderlə görüşə çıxanda çalışacağam ki, ona qədər 3-4 dəfə rinqə çıxım. Bir sözlə, fəal döyüşçü olacağam". Tayson Fyurinin növbəti döyüşü avqustun 18-də Belfastda keçiriləcək.





## "Ölkəmi çempion etməyincə futboldan ayrılmayacağam"

Leonel Messi yığmadakı karyerası ilə bağlı yayılan xəbərlərə münasibət bildirib. Argentinalı ulduz yığmadakı karyerasını başa vurması barədə xəbərləri təkzib edib. 31 yaşlı futbolçu millidə çıxışını davam etdirəcəyini deyib.
O bildirib ki, Rusiyada keçirilən dünya çempionatı onun üçün son yarış olmayacaq: "İndiyə kimi ən əhəmiyyətli turnirlərin hamısını qazandım. Amma sonuncusu üçün çox həvəsliyəm. Ölkəmi çempion etməyincə futboldan ayrılmayacağam".
Qeyd edək ki, DÇ-2018-də D qrupunda yer alan Argentina İslandiya ilə heçheçə edib (1:1), Xorvatiyaya uduzub (0:3). Messinin komandası son turda Nigeriya ilə üz-üzə gələcək.

## *"Bu oyunun hesabını mənə deyəni edam etdirəcəyəm"*

Britaniya şahzadəsi Uilyam Yaxın Şərq ölkələrinə rəsmi səfərə çıxıb. 36 yaşlı Kembric şahzadəsi səfər çərçivəsində İordaniyada olub.
İordaniyanın 23 yaşlı vəliəhd şahzadəsi Hüseyn bin Abdulla ilə bir araya gələn Uilyam Britaniya kraliçası 2-ci Yelizavetanın ad günü münasibətilə Əmmanda təşkil olunmuş təntənəli qəbulda iştirak ediblər.
Səfərdə olduğu üçün Rusiyada keçirilən DÇ-2018-nin İngiltərə-Panama matçının translyasiyasına baxa bilməyən şahzadə Uilyam qarşılaşmanın videoyazısına Əmmandakı kral iqamətgahında şahzadə Hüseynlə birlikdə baxıb.



Maraqlıdır ki, matç başlayan zaman şahzadə Uilyam zarafatla "Bu oyunun hesabını mənə deyəni edam etdirəcəyəm!" söyləyib. O, matçın videoyazısına baxanadək hesabı öyrənmək istəməyib.

## *Tennisçinin cavabı sərt olub*

Tennis üzrə keçmiş dünya çempionu Vinus Uilyams Rafael Nadalın mükafatla bağlı sözlərinə münasibət bildirib.
İspaniyalı tennisçi Rafael Nadal İtaliya jurnalına verdiyi müsahibəsində deyib: "Qadın modellər kişilərdən daha çox qazanırlar və heç kəs heç nə demir. Çünki zərif cinsin nümayəndələrinin auditoriyası böyükdür".
ABŞ tennisçisi, böyük bacı Vinus Uilyams bu fikrə münasibət bildirib: "Şəxsən mən model biznesi haqqında heç nə bilmirəm. Amma görürəm ki, bu, Rafael Nadal üçün anlaşılan məfhumdur.
Bərabərliklə bağlı isə qarşıda görüləsi işlər hələ çoxdur. Kişilər bu bərabərliyi qadınlar qədər çox arzulamalıdırlar. Bu, çox vacibdir. Oğlan övladlarını elə böyütmək lazımdır ki, onlar qadınlara bərabər hüquqlarda hörmət etməyi öyrənsinlər".

## *Novak Cokoviç finalda*

Serbiyalı tennisçi Novak Cokoviç nüfuzlu "Uimbldon" yarışı ərəfəsində vəziyyətini dəyərləndirib.
Tanınmış tennisçi bundan əvvəl yarışdığı London turnirində inamla çıxış edərək finala qədər yüksəlib.
"Mən formadayam. Düşünürəm ki, bu mövsümdə yaxşı oyun nümayiş etdirdim. Çox sevinirəm ki, "Uimbldon" turnirinin astanasında belə yaxşı çıxış etdim. London turnirinin finalında uduzsam da, bura qədər əla gəldim. Bu, gözəl nəticədir", - deyə Novak Cokoviç deyib.



Qeyd edək ki, serbiyalı tennisçi finalda Marin Çiliçə qarşı oynayıb.

## İranlı azarkeşlər Ronaldonu yatmağa qoymayıblar

Dünən dünya çempionatının 3-cü turunda Portuqaliya ilə oyuna çıxan İran millisinin azarkeşləri rəqib komandaya təsir göstərməyə çalışıblar.
Fanatlar portuqaliyalı futbolçuların Saranskda məskunlaşdığı otelin qarşısında səs-küy salaraq oyunçuların yatmasına mane olublar.
Portuqaliya yığmasının kapitanı Kriştianu Ronaldo pəncərədən əl işarəsilə iranlı azarkeşlərə yatmaq istədiyini bildirərək onlardan sakit olmağı xahiş edib.



## *"Yaxşı həyat yoldaşı olmamışam"*

Olimpiya çempionu Klet Keller həyat yoldaşı ilə boşandıqdan sonra 1 il öz avtomobilində yaşayıb.
ABŞ üzgüçüsü Afina-2004 Yay Olimpiya Oyunlarında sərbəst üsulla 4x200 m məsafəyə yarışlarda qızıl medala layiq görülüb.
2014-cü ildə həyat yoldaşından boşanan idmançı depressiyaya düşüb. İmkanı olmadığından Olimpiya çempionu öz şəxsi avtomobilində yaşamağa məcbur qalıb.
Klit Keller deyib: "Aliment ödədiyimə görə mənzil almağa imkanım yox idi. Demək olar ki, 1 il maşınımında gecələdim. Düşünürdüm ki, idmanda uğur qazandığım kimi, şəxsi həyatda da xoşbəxt olacağam. Amma həyatı yaşamaq başqadır. Bunun üçün realist olmaq və ailənin problemləri ilə maraqlanmaq lazım gəlir. Etiraf edirəm ki, yaxşı həyat yoldaşı olmamışam".






## Köynəklərin qiyməti düşüb

NBA-nın "Klivlend" klubunun oyunçusu, əfsanəvi basketbolçu Lebron Ceymsin idman köynəklərinin qiyməti aşağı düşüb. Məşhur basketbolçunun köynəkləri əvvəllər internet mağazada 110 ABŞ dollarına satıldığı halda indi onların qiyməti 55 ABŞ dolları təşkil edir.
Qiymətin aşağı düşməsinə səbəb Lebron Ceymsin iyul ayında azad agent status alacağı və "Klivlend"i tərk edəcəyi ehtimalı ilə bağlıdır.
Lakin maraqlıdır ki, əfsanəvi basketbolçu klubunu dəyişib-dəyişməyəcəyi ilə bağlı hələ heç bir açıqlama verməyib.

## Vladimir Kliçko: "Coşua Uaylderdən güclü boksçudur"

Ukraynalı boksçu, keçmiş dünya çempionu Vladimir Kliçko Deontey Uaylder və Antoni Çoşuanın qarşıda nəzərdə tutulan döyüşü barədə münasibət bildirib.
"Hər iki döyüşçü tanınmış boksçulardır, lakin fərqlidirlər. Düşünürəm ki, Antoni Çoşua Deontey kimi cəld olmasa da, daha güclü döyüşçüdür. Çoşuanın həvəskarların yarışında yaxşı təcrübəsi var. O, Uaylderdən gəncdir və gələcəkdə təcrübəsini daha da artıra bilər. Bir sözlə onun vaxtı çoxdur, Uaylderin isə az", - deyə Kliçko deyib.

## VAR sisteminin xeyri

Rusiyada keçirilən dünya çempionatı penaltilərin çoxluğu ilə diqqət çəkir.
Belə ki, geridə qalan günlərdə hakimlər müxtəlif komandaların qapısına düz 16 dəfə 11 metrlik cərimə zərbəsi təyin ediblər. 32 oyunda təyin olunmuş cərimələrdən 13-ü qolla nəticələnib.
Maraqlıdır ki, DÇ-2014-də hakimlər 68 matçda üst-üstə cəmi 13 penalti təyin etmişdilər. Mütəxəssislər video yardımçı hakim sisteminin (VAR) tətbiq olunmasının bu sayın artmasına səbəb olduğunu qeyd edirlər.

Murad Fərzəliyev və Aslan Şirəliyev jurnalist-pedaqoq
**Akif Şahverdiyevin**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

**Baş redaktor:**
**M.Q.Fərzəliyev**

**Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168**

**AZƏRBAYCAN BEYNƏLXALQ BANKI**
**H/H AZ79IBAZ38090019449333849204**
**M/H 0137010002944**
**KOD 805250**
**VÖEN 1500306421**

**Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**
**Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.**

**Qiyməti 20 qəpikdir.**
**Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.**

***E-mail:***
**olimpiya_dunyasi@mail.ru**
***Ünvan:***
**Bakı şəhəri,**
**2-ci sülh döngəsi, 2a.**
***Tel.:* 564-90-49; 564-90-54; 564-74-19**

**DİQQƏT!**
**Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.**